Bank Olmayan Kredit Təşkilatı "İnternational" Açıq Səhmdar Cəmiyyətinin

2025-ci il üzrə İdarəetmə

Hesabatı

<table>
<tr><td>1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi</td><td>"Bank Olmayan Kredit Təşkilatı "İnternational" Açıq Səhmdar Cəmiyyəti, VÖEN 1002816161, 26.01.2013-cü il.</td></tr>
<tr><td>2.emitentin hüquqi ünvanı və olduğu yer;</td><td>Azərbaycan Respublikası, AZ 1110, Bakı ş., Nəriman Nərimanov, Ataterk pr, ev 12A</td></tr>
<tr><td>3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;</td><td>"Bank Olmayan Kredit Təşkilatı "İnternational" Açıq Səhmdar Cəmiyyəti 26.01.2013-cü ildə dövlət qeydiyyatına alınmış BOKT "İnternational" MMC-nin hüquqi varisidir.</td></tr>
<tr><td>4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;</td><td>Yaranmış filiallar:
<table><tr><td>09.01.2025</td><td>Masazır</td><td>Abşeron rayonu, Masazır kəndi, Ə.Vahid küçəsi, ev 1043</td></tr><tr><td>19.03.2025</td><td>KOB</td><td>Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti 165 A</td></tr><tr><td>30.05.2025</td><td>Ağdaş</td><td>Ağdaş şəhəri, H.Əliyev prospekti 97</td></tr><tr><td>23.10.2025</td><td>Qarabağ</td><td>Ağdam rayonu, Quzanlı qəsəbəsi, H.Əliyev prospekti</td></tr></table>
Ləğv edilmiş filiallar:

Şabran filialı – ləğv edilmə tarixi 01.04.2026</td></tr>
<tr><td>5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;</td><td>Yoxdur;</td></tr>
<tr><td>6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən</td><td>Emitent şirkətlər qrupuna daxil deyil.</td></tr>
</table>

bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;	
7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;	"BOKT "İnternational" ASC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" ASC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər: - Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq); - Lizinq; - Veksellərin uçotu; - Qarantiyanın verilməsi; - Sığorta agenti xidmətlərinin göstərilməsi; - Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.
8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;	"BOKT "İnternational" ASC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" ASC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər: - Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq); - Lizinq; - Veksellərin uçotu; - Qarantiyanın verilməsi; - Sığorta agenti xidmətlərinin göstərilməsi; - Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.
9.emitentin təklif etdiyi məhsullar və xidmətlər;	"BOKT "İnternational" ASC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" ASC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər: - Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq); - Lizinq; - Veksellərin uçotu; - Qarantiyanın verilməsi; - Sığorta agenti xidmətlərinin göstərilməsi; - Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.
10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası;	389 nəfər, 35
11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;	Müşahidə Şurası: Həsənov Rifat Vaqif oğlu Abdullayev Hikmət Fikrət oğlu Allahverdiyev Aqşin İsa oğlu. İdarə Heyətinin Sədri-Həsənov Nicat Vaqif oğlu.
12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;	Fiziki şəxs-1 Həsənov Rifat Vaqif oğlu
13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların	Həsənov Rifat Vaqif oğlu- 10 000 ədəd səhm, 100%

hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrıayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı-	
14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı)-	Yoxdur
15.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar.	**22.09.2025-ci il** Səhmdarların Ümumi yığıncağı Bakı şəhəri, Nərimanov rayonu, Mustafa Kamal Atatürk, ev 12A istiqraz buraxılış;
16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): -investisiya qiymətli kağızın növü və forması; - investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; - investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; - - investisiya qiymətli kağızlar buraxılışınıın məcmu nominal dəyəri; - hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir); - faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi; - investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda).	1.Sənədsiz , adi səhmlər; AZ1001021026; 22 noyabr 2021-ci il; Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 5000 ədəd; Ümumi məbləğ-5 mln. 2.Sənədsiz , adi səhmlər; AZ1001021026; 05 may 2023-ci il; Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 3000 ədəd; Ümumi məbləğ-3 mln. Dividend ödənişi- 3 301 286.10 (üç milyon üç yüz bir min iki yüz səksən altı manat 10 qəpik) manat 3.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2007021028, 06 oktyabr 2023-cü il. İllik gəlirlik-13%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20 000 ədəd; Ümumi məbləğ-2 mln. 4.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2006021029, 06 oktyabr 2023-cü il. İllik gəlirlik-18%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 ədəd; Ümumi məbləğ-1 mln. 5.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2008021027, 30 oktyabr 2023-cü il, İllik gəlirlik-18%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 ədəd; Ümumi məbləğ-1 mln. 6.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2009021026, 28 dekabr 2023-cü il, İllik gəlirlik-13%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 ədəd; Ümumi məbləğ-1 mln. 7.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2010021023, 28 dekabr 2023-cü il, İllik gəlirlik-13%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 ədəd; Ümumi məbləğ-1 mln. 8.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2012021021, 25 yanvar 2024-ci il, İllik gəlirlik-18%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 ədəd; Ümumi məbləğ-1 mln. 9.Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2011021022, 25 yanvar 2024-ci il, İllik gəlirlik-18%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 ədəd; Ümumi məbləğ-1 mln. 10. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2014021029, 28 mart 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 11. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar;

	AZ2015021028, 28 mart 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 12. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2013021020, 28 mart 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 13. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2016021027, 01 aprel 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 14. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2017021026, 01 aprel 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 15. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2019021024, 01 aprel 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 16. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2020021021, 01 aprel 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 17. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2018021025, 01 aprel 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 18. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2024021027, 29 avqust 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 19. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2023021028, 29 avqust 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 20. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2022021029, 29 avqust 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 21. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2021021020, 29 avqust 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 22. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2030021029, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 23. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2031021028, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 24. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2027021024, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 25. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2028021023, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 26. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2025021026, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 27. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2029021022, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 28. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2026021025, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 29. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2032021027, 25 noyabr 2024-cü il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 250 ədəd; Ümumi məbləğ - 250 min. 30. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar;

	AZ2033021026, 14 may 2025-ci il, İllki gəlirlik-15%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 31. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2035021024, 18 iyul 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 32. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2036021023, 18 iyul 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 33. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2038021021, 28 iyul 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 34. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2037021022, 28 iyul 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 35. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2039021020, 26 avqust 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 36. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; A22040021027, 8 oktyabr 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 37. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2041021026, 8 oktyabr 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 38. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2044021023, 25 noyabr 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 39. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2042021025, 25 noyabr 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln. 40. Faizli, sənədsiz, təmin edilməmiş istiqrazlar; AZ2043021024, 25 noyabr 2025-ci il, İllki gəlirlik-18%. Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 ədəd; Ümumi məbləğ – 1 mln.
17.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi.	Yoxdur;
18.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar: - bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği; - aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi.	Təsisçi, Həsənov Rifat Vaqif oğlu 1 Borc müqaviləsi (16.01.2025) 150000 AZN 2 Borc müqaviləsi (17.01.2025) 450000 AZN 3 Borc müqaviləsi (21.01.2025) 500000 AZN 4 Borc müqaviləsi (22.01.2025) 550000 AZN 5 Borc müqaviləsi (17.04.2025) 1000000 AZN 6 Borc müqaviləsi (23.04.2025) 500000 AZN 7 Borc müqaviləsi (29.04.2025) 100000 AZN 8 Borc müqaviləsi (30.04.2025) 300000 AZN 9 Borc müqaviləsi (01.05.2025) 200000 AZN 10 Borc müqaviləsi (07.05.2025) 1000000 AZN 11 Borc müqaviləsi (14.05.2025) 200000 AZN 12 Borc müqaviləsi (20.05.2025) 400000 AZN 13 Borc müqaviləsi (21.05.2025) 200000 AZN 14 Borc müqaviləsi (14.08.2025) 500000 AZN 15 Borc müqaviləsi (18.05.2025) 150000 AZN 16 Borc müqaviləsi (23.10.2025) 200000 AZN
19.Hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;	15.07.2026-cı il

20.hesabatın açıqlanma mənbəyi haqqında məlumat.	https://www.cbar.az/meas

BOKT "İnternational" ASC-nin

İdarə Heyətinin Sədri **Nicat Həsənov**

Baş mühasib: **Mirabbas Əsgərov**

BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Maliyyə Hesabatları və
Müstəqil Auditorların Rəyi
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyətinin ("Təşkilat") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2025-ci il tarixinə Təşkilatın maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri özündə düzgün şəkildə əks etdirən maliyyə hesabatlarının Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- MHBS Mühasibat Uçotu Standartlarına riayət olunması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Təşkilat işini normal şərtlər altında davam etdirəcəyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Təşkilat daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Təşkilatın maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Təşkilatın maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Təşkilatın aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 21 may 2026-cı il tarixində Təşkilatın İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

BANK OLMAYAN KREDİT TƏŞKİLATI «İNTERNATİONAL» QAPALI SƏHMDAR CƏMİYYƏTİ

İdarə Heyəti tərəfindən:

Nicat Həsənov
İdarə Heyətinin sədri

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Mirabbas Əsgərov
Baş mühasib

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və Müşahidə Şurası və İdarə Heyətinə:

Rəy

Biz BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyətinin ("Təşkilat") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatların qısa xülasəsi də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Təşkilatın 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Rəy üçün Əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Təşkilatdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əsas Audit Məsələləri

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

Əsas audit məsələləri

Müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərərləri ehtiyatı

Müştərilərə verilmiş kreditlər 31 dekabr 2025-ci il tarixinə cəmi aktivlərin 85%-ni təşkil edir və müntəzəm olaraq təxmin edilən və istifadə edilən fərziyyələrə qarşı həssas olan ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyat çıxılmaqla qiymətləndirilir.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi rəhbərlikdən defolt ehtimalını (DE), defolt vəziyyətində riskə məruz qalmanı (DVRMQ) və defolt zamanı yaranan zərəri (DZYZ) müəyyən etmək üçün müşahidə edilən tarixi məlumatları, cari iqtisadi vəziyyəti və mövcud perspektivli məlumatları nəzərə alaraq əhəmiyyətli mülahizələri və qiymətləndirmə üsullarını tətbiq etməyi tələb edir.

Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Müştərilərə verilmiş kreditlər üzrə kredit zərəri ehtiyatı Təşkilatın maliyyə aktivlərinin qalıqlarının maliyyə vəziyyəti baxımından əhəmiyyətli olması və "Maliyyə alətləri" adlı 9 saylı MHBS üzrə EOKZ məbləğinin hesablanmasının mürəkkəbliyi və mülahizələrə görə əsas audit məsələsi hesab edilir.

Maliyyə hesabatlarına daxil edilmiş "Əhəmiyyətli uçot prinsiplərinə dair məlumat" adlı 2 saylı Qeyd, "Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr" adlı 3 saylı Qeyd, "Müştərilərə verilmiş kreditlər" adlı 8 saylı Qeyd və "Maliyyə risklərinin idarə edilməsi" adlı 26 saylı Qeyd ehtiyat haqqında ətraflı məlumat təqdim edir.

Audit zamanı bu məsələ necə nəzərdən keçirilmişdir?

Biz "Maliyyə alətləri" adlı 9 saylı MHBS-nin tələblərinə uyğunluğun EOKZ qiymətləndirməsi ilə bağlı Təşkilatın metodologiyası və daxili qaydalarının əsas aspektlərini təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə öz mütəxəssislərimizi cəlb etmişdik.

Peşəkar mülahizələrin uyğunluğu və EOKZ ehtiyatı təxminləri ilə bağlı rəhbərlik tərəfindən irəli sürülən fərziyyələrin uyğunluğunu təhlil etmək üçün biz aşağıdakı prosedurları həyata keçirmişik:

Biz, müştərilərə verilən kreditlər üzrə DE, DZYZ və DVRMQ hesablanması, gecikmələrin və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında əks olunması və kreditlərin müvafiq mərhələlərə bölüşdürülməsi üçün məlumatların düzgünlüyünü sınaqdan keçirmişik. Biz nümunə əsasında dəstəkləyici sənədlərə daxil edilmiş məlumatları razılaşdırmışıq.

Biz həmçinin maliyyə hesabatlarının açıqlanmasının Təşkilatın kredit riskinə məruz qalmasını lazımi şəkildə əks etdirib-etdirmədiyini qiymətləndirmişdik.

Maliyyə Hesabatlarına görə Rəhbərliyin və Audit Komitəsinin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Təşkilatı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit Komitəsi Təşkilatın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmamasına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Təşkilatın daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Təşkilatın fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Təşkilatın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında Audit Komitəsinə məlumat veririk.

Biz həmçinin idarəetmə səlahiyyətləri verilmiş şəxslərə bəyan edirik ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq hallarda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərin nəzərinə çatdırılmış məsələlərdən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli olanlarını və bu səbəbdən əsas audit məsələləri hesab olunanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, bu məsələləri auditor hesabatımızda təsvir edirik.

Baker Tilly Azerbaijan

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
AKTİVLƏR:			
Pul vəsaitləri və onların ekvivalentləri	6	1,916,146	2,020,103
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	7, 22	2,099,600	-
Müştərilərə verilmiş kreditlər	8	51,256,775	37,960,091
İnvestisiya mülkiyyəti		-	1,789,163
Əmlak və avadanlıqlar	9	1,211,697	823,886
Qeyri-maddi aktivlər	9	119,568	112,030
İstifadə hüququ olan aktivlər	9	1,936,303	2,141,812
Təxirə salınmış mənfəət vergisi aktivi	21	611,769	362,865
Digər aktivlər	10	1,499,367	326,617
Cəmi aktivlər		**60,651,225**	**45,536,567**
ÖHDƏLİKLƏR VƏ KAPİTAL			
ÖHDƏLİKLƏR			
Borc alınmış vəsaitlər	11, 22	26,224,498	15,198,812
Buraxılmış borc qiymətli kağızları	12, 22	16,326,438	13,196,163
İcarə öhdəlikləri	13	2,214,014	2,340,040
Ödəniləcək vergilər		650,013	819,026
Digər öhdəliklər	14, 22	1,081,736	2,124,192
Cəmi öhdəliklər		**46,496,699**	**33,678,233**
KAPİTAL:			
Nizamnamə kapitalı	15	10,000,000	8,000,000
Bölüşdürülməmiş mənfəət		4,154,526	3,858,334
Cəmi kapital		**14,154,526**	**11,858,334**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**60,651,225**	**45,536,567**

İdarə Heyəti tərəfindən:

Nicat Həsənov
İdarə Heyətinin sədri

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Mirabbas Əsgərov
Baş mühasib

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
Faiz gəliri	16, 22	24,103,348	17,827,749
Faiz xərci	16, 22	(5,710,752)	(3,872,936)
Xalis faiz gəliri		**18,392,596**	**13,954,813**
Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin tutulması	8	(1,070,945)	(45,649)
Xalis faiz gəliri		**17,321,651**	**13,909,164**
Haqq və komissiya gəliri	17	393,283	323,803
Haqq və komissiya xərci	18	(89,190)	(96,885)
Xalis qeyri-faiz gəliri		**304,093**	**226,918**
İşçi heyəti ilə bağlı və əlaqədar xərclər	19, 22	(6,562,351)	(4,235,118)
Ümumi və inzibati xərclər	20	(4,066,281)	(3,956,705)
Digər gəlirlər, xalis		29,531	82,812
Mənfəət vergisindən əvvəlki mənfəət		**7,026,643**	**6,027,071**
Mənfəət vergisi xərci	21	(1,480,207)	(1,206,491)
İl üzrə xalis mənfəət		**5,546,436**	**4,820,580**
İl üzrə cəmi məcmu gəlir		**5,546,436**	**4,820,580**
Təşkilatın sahiblərinə məxsus əsas və azaldılmış bir səhm üzrə mənfəət (hər səhm üzrə AZN ilə)	27	**603**	**603**

İdarə Heyəti tərəfindən:

BANK OLMAYAN KREDİT TƏŞKİLATI «İNTERNATİONAL» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Nicat Həsənov
İdarə Heyətinin sədri

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Mirabbas Əsgərov
Baş mühasib

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
1 yanvar 2024-cü il	**8,000,000**	**2,339,040**	**10,339,040**
İl üzrə cəmi məcmu gəlir	-	4,820,580	4,820,580
Elan edilmiş dividendlər	-	(3,301,286)	(3,301,286)
31 dekabr 2024-cü il	**8,000,000**	**3,858,334**	**11,858,334**
Nizamnamə kapitalında artma	2,000,000	-	2,000,000
İl üzrə cəmi məcmu gəlir	-	5,546,436	5,546,436
Elan edilmiş dividendlər	-	(5,250,244)	(5,250,244)
31 dekabr 2025-ci il	**10,000,000**	**4,154,526**	**14,154,526**

İdarə Heyəti tərəfindən:

BANK OLMAYAN KREDİT TƏŞKİLATI «İNTERNATİONAL» QAPALI SƏHMDAR CƏMİYYƏTİ

Nicat Həşənov
İdarə Heyətinin sədri

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Mirabbas Əsgərov
Baş mühasib

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
ƏMƏLİYYAT FƏALİYYƏTİ			
Mənfəət vergisindən əvvəl mənfəət		7,026,643	6,027,071
Qeyri-nağd maddələr üzrə düzəlişlər:			
Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin tutulması	8	1,070,945	45,649
Köhnəlmə və amortizasiya xərci	9	1,336,849	1,162,666
İstifadə olunmamış məzuniyyət ehtiyatında dəyişiklik		266,146	123,261
Hesablanmış faizlərdə və təxirə salınmış əməliyyat xərclərində xalis dəyişiklik		(183,170)	286,697
Əmlak və avadanlıqların silinməsi üzrə gəlir		(10,000)	(36,716)
İcarə öhdəliklərinin tanınmasının dayandırılması üzrə gəlir		(19,533)	(46,096)
Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər:			
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər		(2,080,000)	-
Müştərilərə verilmiş kreditlər		(14,260,544)	(7,793,660)
Digər aktivlər		31,818	(141,294)
Ödəniləcək vergilər		(8,012)	8,583
Digər öhdəliklər		(930,265)	728,575
(Əməliyyat fəaliyyətinə yönələn)/əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri		**(7,759,123)**	**364,736**
Ödənilmiş mənfəət vergisi		(1,890,112)	(879,815)
Əməliyyat fəaliyyətindən yönələn xalis pul vəsaitləri		**(9,649,235)**	**(515,079)**
İNVESTİSİYA FƏALİYYƏTİ			
İnvestisiya mülkiyyəti üzrə ödənişlər		(528,580)	(441,600)
İnvestisiya mülkiyyətinin silinməsindən daxilolmalar		474,337	-
Əmlak və avadanlıqlar üzrə ödənişlər		(806,567)	(699,239)
Qeyri-maddi aktivlər üzrə ödənişlər		(23,000)	(64,670)
Əmlak və avadanlıqların satışı üzrə daxilolmalar		150,000	165,248
İnvestisiya fəaliyyətindən yönələn xalis pul vəsaitləri		**(733,810)**	**(1,040,261)**
MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ			
Borc alınmış vəsaitlər üzrə daxilolmalar	11	29,025,000	12,095,800
Borc alınmış vəsaitlərin ödənilməsi	11	(18,065,854)	(7,319,700)
Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar	12	13,251,000	8,801,000
Buraxılmış borc qiymətli kağızlarının ödənilməsi	12	(9,997,700)	(7,306,000)
İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi	13	(833,358)	(736,516)
Nizamnamə kapitalının artırılmasından daxilolmalar		2,000,000	-
Səhmdara ödənilmiş dividendlər		(5,100,000)	(3,301,286)
Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri		**10,279,088**	**2,233,298**

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artma		**(103,957)**	**677,958**
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*	6	2,020,103	1,342,145
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*	6	1,916,146	2,020,103

31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Təşkilat tərəfindən alınmış və ödənilmiş faizlər müvafiq olaraq 23,976,663 AZN və 5,767,237 AZN təşkil etmişdir (31 dekabr 2024-cü il: müvafiq olaraq 17,895,780 AZN və 3,654,270 AZN).

İdarə Heyəti tərəfindən:

Nicat Həsənov
İdarə Heyətinin sədri

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Mirabbas Əsgərov
Baş mühasib

21 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-56-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

1 GİRİŞ

Hüquqi status və əməliyyatların xüsusiyyəti

BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyəti ("Təşkilat") 26 yanvar 2013-cü il tarixində Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmışdır. Təşkilat 21 may 2013-cü il tarixində kreditləşmə fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankından (bundan sonra "ARMB" adlandırılacaq) "BKT-12" nömrəli lisenziya almışdır. Təşkilatın fəaliyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tənzimlənir. 31 dekabr 2025-ci il tarixinə Təşkilatın hüquqi ünvanı Mustafa Kamal Atatürk prospekti 2A, AZ 1110, Bakı, Azərbaycan Respublikasıdır.

Təşkilatın yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasında mikro, kiçik və orta biznes nümayəndələrinə, habelə satış və kiçik istehsal fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə və fiziki şəxslərdən ibarət qruplara kreditlərin verilməsi də daxil olmaqla maliyyə xidmətləri göstərməkdir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Təşkilatın Azərbaycan Respublikasında müvafiq olaraq 40 və 40 filialı fəaliyyət göstərmişdir. 31 dekabr 2025-ci il tarixinə Təşkilatın 389 nəfər işçisi olmuşdur (31 dekabr 2024-cü il: 354 nəfər işçi).

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Təşkilatın buraxılmış nizamnamə kapitalı aşağıdakı səhmdara məxsus olmuşdur:

	31 dekabr 2025-ci il, %	31 dekabr 2024-cü il, %
Cənab Rifət Həsənov	100.00	100.00
	100.00	**100.00**

Təşkilatın əməliyyat mühiti

Təşkilat öz əməliyyatlarını Azərbaycan Respublikasında həyata keçirir. Təşkilat Azərbaycanın inkişaf etməkdə olan bazar xüsusiyyətlərini əks etdirən iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquqi, vergi və tənzimləyici strukturlar daimi inkişafda olmasına baxmayaraq, mütəmadi olaraq yeni şərhlərə və dəyişikliklərə məruz qalır, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Təchizat zəncirlərindəki əvvəlki pozulmalar, Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə fonunda yaranan geosiyasi gərginliklər və qlobal tələbat strukturundakı dəyişikliklərdən sonra qlobal iqtisadiyyat 2025-ci il ərzində uyğunlaşma prosesini davam etdirmişdir. Əmtəə qiymətlərinin geosiyasi hadisələrə və qlobal ticarət axınlarındakı dəyişikliklərə həssas qalmasına baxmayaraq, əvvəlki illərlə müqayisədə inflyasiya təzyiqləri zəifləmişdir.

2025-ci il ərzində hökumət tərəfindən həyata keçirilən iqtisadi islahatlar, sabit məzənnə rejimi və kifayət qədər xarici valyuta ehtiyatlarının mövcudluğu fonunda Azərbaycan iqtisadiyyatı ümumi makroiqtisadi sabitliyi qoruyub saxlamışdır.

İlkin məlumatlara əsasən, 2025-ci ildə Azərbaycanda ÜDM 2024-cü illə müqayisədə 1.4% artaraq 129.1 milyard AZN-ə (75.9 milyard ABŞ dollarına) çatmışdır. Neft və qaz sektorunda yaradılmış əlavə dəyər 1.6% azaldığı halda, qeyri-neft sektorunda yaradılmış əlavə dəyər 2.7% artmışdır.

2025-ci il ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi 48.9 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 24.5 milyard ABŞ dolları ixrac olunan malların, 24.38 milyard ABŞ dolları isə idxal olunan malların payına düşərək, 0.12 milyard ABŞ dolları məbləğində müsbət ticarət saldosu formalaşmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının (ARMB) məlumatına əsasən 2025-ci ilin yanvar-dekabr ayları üzrə istehlak qiymətləri indeksi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 105.6% təşkil etmişdir. ARMB monetar siyasətinin idarə edilməsi və Azərbaycan manatının sabitliyinin təmin edilməsi məqsədilə fəaliyyətini davam etdirmişdir. Qlobal inflyasiya tendensiyalarına uyğun olaraq uçot dərəcəsi tənzimlənmiş və 31 dekabr 2025-ci il tarixinə yenidən maliyyələşdirmə dərəcəsi 6.75% müəyyən edilmişdir (31 dekabr 2024-cü il: 7.25%).

31 dekabr 2025-ci il tarixinə Azərbaycanın strateji xarici valyuta ehtiyatları, 31 dekabr 2024-cü il tarixinə 71 milyard ABŞ dolları ilə müqayisədə 83.5 milyard ABŞ dolları təşkil edərək Azərbaycan manatının sabitliyi və bütövlükdə makroiqtisadi dayanıqlığı dəstəkləyən əhəmiyyətli artımı əks etdirmişdir.

2024-cü il üzrə aktiv 19,899 min olan aktiv plastik kartların sayı ilə müqayisədə, 2025-ci ilin dekabr ayının sonuna qədər aktiv plastik kartların sayı 21,980 min ədəd olmaqla tarixən ən yüksək səviyyəyə yüksəlmişdir.

"Fitch" reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici valyuta kredit reytinqini "BBB-" səviyyəsində, 2025-ci il üzrə sabit proqnozla qiymətləndirmişdir. Bu qiymətləndirmə maliyyə göstəriciləri, güclü xarici balans mövqeyi və əhəmiyyətli dövlət aktivlərini əks etdirir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı vergi, hüquqi, qanunverici və siyasi sahədə irəliləyişlər ilə yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və monetar tədbirlərdən də asılıdır. Rəhbərlik iqtisadi mühitdə baş verən hadisələrin Təşkilatın əməliyyatlarına təsirini və nəticə etibarilə bunun Təşkilatın maliyyə vəziyyətinə necə təsir edəcəyini proqnozlaşdıra bilmir.

2 ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

Hesabatların uyğunluğunun bəyanı

Hazırkı maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanmışdır.

Fasiləsizlik prinsipi

Hazırkı maliyyə hesabatları Təşkilatın fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik, Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Təşkilatın yaxın gələcəkdə işini davam etdirəcəyini düşünür. Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Təşkilatın aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Təşkilatın fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

Təqdimatın digər əsasları

Hazırkı maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Hazırkı maliyyə hesabatları tarixi dəyər prinsipi əsasən hazırlanmışdır.

Təşkilat mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir.

Əvəzləşdirmə

Maliyyə aktivləri və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabatda təqdim edilməsi, yalnız Təşkilatın hazırda qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququnun, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyətinin olduğu hallarda həyata keçirilə bilər. Təşkilat gələcək hadisə üzrə xüsusi şərtlər olmadıqda və həm normal şərtlər altında, həm də Təşkilatın defoltu, müflisləşməsi və ya iflası zamanı tətbiq oluna bildikdə, əvəzləşdirmək hüququna malikdir.

Xarici valyutanın çevrilməsi

Təşkilatın funksional valyutası Təşkilatın fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutasıdır. Hazırkı maliyyə hesabatları Təşkilatın funksional və təqdimat valyutası olan Azərbaycan manatı (AZN) ilə təqdim olunur.

Monetar aktivlər və öhdəliklər ARMB-nin müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq Təşkilatın funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Təşkilatın funksional valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya zərərdə (xarici valyutanın çevrilməsi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə tarixi dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə məzənnə dəyişikliklərinin təsiri ədalətli dəyər üzrə mənfəət və ya zərərin bir hissəsi kimi qeydə alınır.

İl sonunda maliyyə hesabatlarının hazırlanmasında Təşkilat tərəfindən istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
1 ABŞ dolları/AZN	1.7000	1.7000
1 Avro/AZN	2.0022	1.7724

Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları

Təsnifatından asılı olaraq maliyyə alətləri aşağıda izah olunduğu kimi ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında nizamlı şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər, ən yaxşı olaraq, fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında, davamlı olaraq, məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərlərinə daxil edilir.

Effektiv faiz dərəcəsi üsulu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması üsuludur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Cari dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə alətlərinin ilkin tanınması

Maliyyə aktivi və ya maliyyə öhdəliyi ilkin olaraq ədalətli dəyərdə, mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ölçülməyən maddələr üzrə isə əldə edilməsinə və ya buraxılmasına birbaşa aid olan əməliyyat xərcləri əlavə edilməklə ölçülür

İlkin tanınma zamanı ədalətli dəyər, ən yaxşı olaraq, əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Təşkilatın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

Maliyyə alətlərinin təsnifatı

Maliyyə aktivi amortizasiya olunmuş dəyərdə, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərdə ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- aktiv müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Borc aləti aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- aktiv müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Təşkilat ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanınma zamanı Təşkilat amortizasiya olunmuş dəyərdə və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

Biznes modelinin qiymətləndirilməsi

Təşkilat maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün şəkildə əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəricilərinin necə qiymətləndirilməsi və Təşkilatın rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) fəaliyyət nəticələrinə təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerlərinin necə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Təşkilatın məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

Kommersiya məqsədləri üçün saxlanılan və ya fəaliyyəti ədalətli dəyər əsasında qiymətləndirilən maliyyə aktivləri MZVƏD ilə qiymətləndirilir, belə ki, onlar nə müqavilə üzrə pul vəsaitlərinin yığımı, nə də müqavilə üzrə pul vəsaitlərinin yığımı və maliyyə aktivlərinin satışı üçün saxlanılır.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə aktivinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Təşkilat alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək. Qiymətləndirmə zamanı Təşkilat aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Təşkilatın iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər (məs. reqress hüququ olmayan aktiv razılaşmaları); və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məs. faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

Maliyyə aktivlərinin yenidən təsnifatı

Maliyyə aktivləri Təşkilatın maliyyə aktivlərini idarə etməsi üzrə biznes modelini dəyişməsindən sonrakı dövr istisna olmaqla, ilkin tanınmadan sonra yenidən təsnif edilmir.

Təşkilat maliyyə aktivlərini idarə etməsi üzrə biznes modelini dəyişdikdə maliyyə aktivlərini də yenidən təsnif etməlidir. Belə dəyişikliklərin nadir hallarda baş verəcəyi gözlənilir. Belə dəyişikliklər Təşkilatın rəhbərliyi tərəfindən xarici və daxili dəyişikliklər nəticəsində müəyyən edilir və Təşkilatın əməliyyatları üçün əhəmiyyətli və kənar tərəflərə nümayiş etdirilə bilən şəkildə olmalıdır. Müvafiq olaraq, Təşkilatın biznes modelində dəyişiklik yalnız Təşkilat əməliyyatları üçün əhəmiyyətli olan fəaliyyətə başladıqda və ya belə fəaliyyətə xitam verdikdə baş verir; məsələn, Təşkilat hər hansı biznes xətti əldə etdikdə, satdıqda və ya xitam verdikdə.

Maliyyə aktivlərinin modifikasiyası və tanınmasının dayandırılması

Maliyyə aktivinin modifikasiyası maliyyə aktivinin pul vəsaitlərinin hərəkətini tənzimləyən müqavilə şərtləri yenidən müzakirə edildikdə və ya maliyyə aktivinin ilkin tanınması və ödəmə müddəti arasında başqa şəkildə dəyişdirildikdə baş verir. Modifikasiya dərhal və ya gələcək tarixdə müqavilə üzrə pul vəsaitlərinin axınının miqdarına və/və ya müddətinə təsir göstərir.

Təşkilat yığımı artırmaq və defolt riskini minimuma endirmək üçün maliyyə çətinliyi ilə üzləşən müştərilərin kreditlərini restrukturizasiya edir. Borcalanın ilkin müqavilə şərtləri ilə ödənişi həyata keçirməsi üçün bütün səyləri göstərməsinə baxmayaraq, kredit şərtləri defolt və ya defolt riskinin çox olduğu və borcalanın yenidən işlənmiş şərtlərə cavab verə biləcəyi gözlənildiyi hallarda dəyişdirilir.

Yenidən işlənmiş şərtlərə əksər hallarda kredit müddətinin uzadılması, kreditin pul vəsaitlərinin hərəkəti müddətinə dəyişiklik (əsas və faiz ödənişi), ödəniləcək pul vəsaitlərinin həcminin azaldılması (əsas və bağışlanılacaq faizlər) və digər şərtlər üzrə düzəlişlər daxildir. Maliyyə aktivi dəyişdirildikdə, Təşkilat bu modifikasiyanın tanınmanın dayandırılması ilə nəticələndiyini qiymətləndirir. Təşkilatın siyasətinə uyğun olaraq, bir dəyişiklik, tamamilə, fərqli şərtlərə səbəb olduqda tanınmanın dayandırılmasına səbəb olur.

Dəyişdirilmiş şərtlərin ilkin müqavilə şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını müəyyən etmək üçün Təşkilat aşağıdakıları nəzərə alır:

- İlkin şərtlər əsasında qalıq pul vəsaitlərinin cari dəyərini, yenidən işlənmiş şərtlər əsasında qalıq pul vəsaitləri ilə müqayisəsi üçün kəmiyyət qiymətləndirilməsi həyata keçirilir, hər iki məbləğ ilkin effektiv faiz dərəcəsi (EFD) ilə diskontlaşdırılır. Cari dəyər fərqi 10%-dən artıqdırsa, Təşkilat bunu əhəmiyyətli dərəcədə fərqli olaraq qəbul edir, bu isə tanınmanın dayandırılması ilə nəticələnir.

Şərtlər əhəmiyyətli dərəcədə fərqlidirsə, Təşkilat ilkin maliyyə aktivini tanımır və ədalətli dəyəri ilə "yeni" aktivi tanıyır və aktiv üçün yeni EFD-ni yenidən hesablayır. Yenidən müzakirə tarixi, dəyərsizləşmə hesablanması məqsədləri üçün, o cümlədən kredit riskinin əhəmiyyətli dərəcədə artmasının olub-olmadığını müəyyənləşdirmək üçün ilkin tanınma tarixi hesab olunur.

Şərtlər ciddi şəkildə fərqlənmirsə, yenidən razılaşdırma və ya dəyişdirmə tanınma ilə nəticələnmir və Təşkilat maliyyə aktivinin yenidən işlənmiş pul vəsaitlərinin hərəkəti əsasında ümumi balans dəyərini yenidən hesablayır və mənfəət və ya zərərdə dəyişiklik üzrə gəlir və ya zərəri tanıyır. Yeni ümumi balans dəyəri dəyişdirilmiş pul vəsaitlərinin hərəkətinin ilkin EFD ilə (və ya satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün kredit üzrə tənzimlənmiş EFD ilə) diskontlaşdırılması ilə yenidən hesablanır.

Təşkilat maliyyə aktivinin tanınmasını yalnız aktivin pul vəsaitlərinin hərəkəti ilə bağlı müqavilə hüquqlarının müddəti (tamamilə fərqli şərtlərlə dəyişdirilmədən yaranan müddəti daxil olmaqla) başa çatdıqda və ya maliyyə aktivi və əsas etibarı ilə aktivə mülkiyyət hüququ ilə bağlı olan bütün risklər və faydalar digər müəssisəyə ötürüldükdə dayandırır. Əgər Təşkilat mülkiyyət hüququ ilə bağlı bütün riskləri və gəlirləri nə təhvil verir, nə də saxlayırsa və ötürülmüş aktivə nəzarəti davam etdirirsə, Təşkilat aktivdə saxlanılmış payını və ödəməli ola biləcəyi məbləğ üçün əlaqəli öhdəliyi tanıyır. Təşkilat köçürülmüş maliyyə aktivinə sahib olmaqla bağlı bütün riskləri və qazancları özündə saxlayırsa, Təşkilat maliyyə aktivini tanımağa davam edir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi

Təşkilat MZVƏD ilə qiymətləndirilməyən aşağıdakı maliyyə alətləri üzrə ehtimal olunan kredit zərərləri (EOKZ) üçün zərər ehtiyatlarını tanıyır:

- borc alətləri olan maliyyə aktivləri;
- verilmiş kredit öhdəlikləri.

12 aylıq EOKZ hesabat tarixindən sonra 12 ay ərzində maliyyə alətinin defolt hadisəsindən yaranan EOKZ-nin həmin hissəsidir. 12 aylıq EOKZ kimi tanınan maliyyə alətləri "1-ci Mərhələ" maliyyə alətləri adlandırılır.

Ömürlük EOKZ maliyyə alətinin gözlənilən müddəti ərzində mümkün bütün defolt hadisələrindən yaranan EOKZ-dir. Ömürlük EOKZ kimi tanınan maliyyə alətləri ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artdıqda, lakin maliyyə alətləri kredit üzrə dəyərsizləşmədikdə "2-ci Mərhələ" maliyyə alətləri, maliyyə alətləri kredit üzrə dəyərsizləşdikdə isə "3-cü Mərhələ" maliyyə alətləri adlandırılır.

EOKZ-nin ölçülməsi

EOKZ kredit zərərlərinin ehtimal əsasında ölçülən qiymətləndirilməsidir. O, aşağıdakı şəkildə ölçülür:

- hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş maliyyə aktivləri: bütün gözlənilən əldə edilməmiş pul vəsaitlərinin cari dəyəri (yəni müqavilə əsasında müəssisəyə ödənilməli pul axınları ilə Təşkilatın əldə etməyi gözlədiyi pul axınları arasındakı fərq);
- hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri: ümumi balans dəyəri ilə hesablanmış gələcək pul axınları arasındakı fərq;

- istifadə edilməmiş kredit öhdəlikləri: öhdəlik istifadə edildikdə müqavilə üzrə Təşkilata ödənilməli pul vəsaitləri ilə Təşkilatın almağı gözlədiyi pul vəsaitləri arasındakı fərqin cari dəyəri.

Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri

Hər bir hesabat tarixində Təşkilat amortizasiya edilmiş dəyərdə və DMGVƏD-də hesablanmış borc maliyyə aktivlərinin kredit üzrə dəyərsizləşib-dəyərsizləşmədiyini qiymətləndirir (bu aktivlər "3-cü Mərhələ maliyyə aktivləri" adlanır).

Maliyyə aktivi üzrə ehtimal olunan gələcək pul vəsaitlərinə mənfi təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə maliyyə aktivi "kredit üzrə dəyərsizləşmiş" sayılır.

Maliyyə aktivinin kredit üzrə dəyərsizləşdiyinin sübutuna aşağıdakı müşahidə edilə bilən məlumatlar daxildir:

- borcalan və ya emitentin mühüm maliyyə çətinliyi yaşaması;
- müqavilə şərtinin pozulması, məsələn, defolt və ya gecikdirmə;
- Təşkilat tərəfindən Təşkilatın dəyişməyəcəyi şərtlərlə kredit və ya avansın restrukturizasiyası;
- borcalanın müflis olacağı və ya maliyyə-təşkilati strukturunun dəyişəcəyi ehtimal edildikdə; və ya
- maliyyə çətinlikləri səbəbindən qiymətli kağızlar üçün fəal bazarın olmaması.

Borcalanın vəziyyətinin pisləşməsinə görə şərtləri yenidən razılaşdırılmış kredit, müqavilə üzrə pul vəsaitlərinin ödənilməyəcəyi riski əhəmiyyətli dərəcədə azaldığı və dəyərsizləşmənin başqa əlamətləri olmadığı hallar istisna olmaqla, kredit üzrə dəyərsizləşmiş sayılır. Əlavə olaraq, ödənişi 90 gündən çox gecikdirilmiş kredit kredit üzrə dəyərsizləşmiş sayılır.

Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi balans dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri: ümumiyyətlə, ehtiyat kimi;
- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Təşkilat kredit öhdəliyi komponenti üzrə EOKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Təşkilat hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi balans dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin balans dəyəri onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı açıqlanır və ədalətli dəyər ehtiyatında tanınır.

Borcların silinməsi

Kreditlər və borc qiymətli kağızları maliyyə aktivini tam və ya qismən bərpa etmək üçün əsaslı gözlənti olmadığı təqdirdə tam və ya qismən silinir. Bu, adətən, Təşkilat borcalanın silinməsi nəzərdə tutulan məbləği ödəmək üçün kifayət qədər pul vəsaiti yaradacaq aktivləri və ya gəlir mənbəyinin olmadığını müəyyən etdikdə baş verir. Bu qiymətləndirmə fərdi aktiv səviyyəsində həyata keçirilir.

Silinmiş məbləğlərin bərpası mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda "maliyyə alətlərinin dəyərsizləşməsi zərərləri"nə daxil edilir.

Silinmiş maliyyə aktivləri ödənilməli məbləğlərin bərpası üzrə Təşkilat prosedurlarına əməl etmək məqsədilə hüquqi tədbirlərin predmeti olaraq qalır.

Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri, məlum olan pul məbləğlərinə asanlıqla çevrilə bilən və dəyər dəyişikliyində əhəmiyyətsiz riskə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri nağd pul vəsaitlərini və əldə edildikləri tarixdən etibarən üç ay və ya daha az ilkin ödəmə müddəti olan müxbir hesabları özündə ehtiva edir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir.

Maliyyə təşkilatlarından alınacaq vəsaitlər

Maliyyə institutlarından alınacaq məbləğlər Təşkilat tərəfindən qarşı tərəf olan maliyyə institutlarına vəsait verildiyi zaman tanınır. Maliyyə institutlarından alınacaq məbləğlər aşağıdakı hallarda amortizasiya olunmuş dəyərlə uçota alınır:

(i) Müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlandıqda və həmin pul vəsaitləri yalnız YƏMFÖ-nü təmsil etdikdə; və
(ii) MZVƏD üçün nəzərdə tutulmadıqda.

Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər Təşkilat müştəriyə kredit verdiyi və ya müştəridən alınacaq kredit tələbi yaratdığı zaman qeydə alınır. Müştərilərə verilmiş kreditlər, ilkin olaraq ədalətli dəyərdə həmçinin birbaşa artan əməliyyat xərcləri ilə və sonradan effektiv faiz metodundan istifadə edərək amortizasiya olunmuş dəyərlə ölçülür.

Dəyərsizləşmə ehtiyatları proqnozlaşdırılan EOKZ modelləri əsasında müəyyən edilir. 3 saylı Qeyd EOKZ-nin ölçülməsində istifadə olunan giriş məlumatları, fərziyyələr və qiymətləndirmə üsulları haqqında məlumatı, o cümlədən Təşkilatın EOKZ modellərinə proqnozlaşdırılan məlumatları necə daxil etməsinin izahını təqdim edir.

İnvestisiya mülkiyyəti

İnvestisiya mülkiyyəti icarə gəliri və ya kapitalın qiymətləndirilməsi və ya hər ikisi məqsədilə Təşkilat tərəfindən saxlanılan və ya tikilməkdə olan və Təşkilatın idarəçiliyi altında olmayan mülkiyyətdir.

İnvestisiya mülkiyyəti tələb olunduğu halda yığılmış köhnəlmə və dəyərsizləşmə ehtiyatı çıxılmaqla ilkin dəyərdə tanınır.

İnvestisiya mülkiyyəti sahibinin idarəçiliyi altında olarsa, həmin halda investisiya mülkiyyəti əmlak və avadanlıqlar kateqoriyasına yenidən təsnifləşdirilir.

Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqlar ilk növbədə, Təşkilatın rəhbərliyi tərəfindən nəzərdə tutulmuş qaydada fəaliyyət göstərə bilməsi üçün zəruri olan yeri və vəziyyəti aktivləşdirməklə birbaşa əlaqəli olan xərclər daxil olmaqla, alınma dəyəri ilə tanınır. Bu aktivlər sonradan xərc modelindən istifadə etməklə ölçülür və sonrakı köhnəlmə və dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyəri ilə göstərilir.

Davam etməkdə olan tikililər istənilən tanınmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyərdə tanınır. Bu cür davam etməkdə olan tikililər tamamlandıqda və istifadə üçün hazır olduqda əmlak və avadanlıqların müvafiq kateqoriyasında təsnifləşdirilir. Davam etməkdə olan tikililər amortizasiya olunmur.

Əmlak və avadanlıqların xaric edilməsindən yaranan mənfəət və ya zərər xaric edilmədən daxil olan vəsait ilə həmin aktivin balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə "digər gəlirlər"in daxilində tanınır.

Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər əməliyyatlarda istifadə olunan proqram təminatıdır. Bu aktivlər sonlu hesab edildiyi üçün kapitallaşdırılmış xərclərin azaldılmış balans metodu ilə amortizasiya edildiyi maya dəyəri modelindən istifadə olunur. Qalıq dəyərlər və istifadə müddəti hər bir hesabat tarixində nəzərdən keçirilir. Bundan əlavə, onlar dəyərsizləşmə sınaqlarına məruz qalırlar. Proqramın istifadə müddəti 10 ildir.

Kompüter proqram təminatının saxlanılması ilə əlaqəli xərclər, yəni düzəlişlər və digər kiçik yeniləmələr və onların quraşdırılması ilə bağlı xərclər, çəkildiyi kimi xərclənir.

Qeyri-maddi aktivin xaric edilməsindən yaranan mənfəət və ya zərər, gəlirlə aktivin balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə "digər gəlirlər"in daxilində tanınır.

İstifadə hüququ olan aktivlər

Təşkilat istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlər dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər ən qısa icarə müddəti ərzində düz xətt metodu əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Təşkilata keçirsə və ya dəyəri bir alış opsionunun həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı istifadə müddəti istifadə olunmaqla hesablanır. İstifadə hüququ olan aktivlər də dəyərsizləşməyə məruz qalır.

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Dəyərsizləşmənin qiymətləndirilməsi məqsədilə aktivlər, əsasən, müstəqil pul vəsaitlərinin daxilolmalarının (pul vəsaitlərini yaradan vahidlər) olduğu ən aşağı səviyyələrdə qruplaşdırılır. Nəticədə, bəzi aktivlər ayrı-ayrılıqda dəyərsizləşmə üçün, bəziləri isə pul vəsaitlərini yaradan vahidlər səviyyəsində yoxlanılır.

Bütün fərdi aktivlər və ya pul vəsaitlərini yaradan vahidlər, hadisələr və ya şəraitdə baş verən dəyişikliklər balans dəyərinin bərpa edilə bilməyəcəyini göstərdikdə, dəyərsizləşmə üçün yoxlanılır.

Dəyərsizləşmə zərəri, aktivin və ya pul vəsaitlərini yaradan vahidin balans dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olduğu məbləğ üçün tanınır, bu, istifadə dəyəri və satış xərcləri çıxılmaqla ədalətli dəyər arasında ən yüksək olanıdır. İstifadə dəyərini müəyyən etmək üçün rəhbərlik hər bir pul vəsaiti yaradan vahiddən gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini təxmin edir və həmin pul vəsaitlərinin cari dəyərini hesablamaq üçün uyğun faiz dərəcəsini müəyyən edir.

Bütün aktivlər sonradan əvvəl tanınmış dəyərsizləşmə zərərinin artıq mövcud olmaya biləcəyinə dair əlamətlər üçün yenidən qiymətləndirilir. Əgər pul vəsaitlərini yaradan vahidin bərpa oluna bilən məbləği onun balans dəyərindən artıq olarsa, dəyərsizləşmə xərcləri ləğv edilir.

Köhnəlmə və amortizasiya

Köhnəlmə və amortizasiya müvafiq olaraq əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər və qeyri-maddi aktivlərin təxmin edilən qalıq dəyəri çıxılmaqla dəyərin silinməsi üçün düz xətt metodu əsasında tanınır. Aşağıdakı təxmin edilən faydalı istifadə müddəti tətbiq edilir:

Mebel və qurğular	4 il
Kompüter avadanlığı	4 il
Motorlu nəqliyyat vasitələri	4 il
Digər aktivlər	5 il
Qeyri-maddi aktivlər	10 il
İstifadə hüququ olan aktivlər	əsas icarə müddəti ərzində

Qalıq dəyəri üzrə əhəmiyyətli ehtimallar və faydalı istifadə müddəti üzrə ehtimallar aktivin yenidən qiymətləndirilib-qiymətləndirilməməsindən asılı olmayaraq, tələb olunduqda, lakin ən azı ildə bir dəfə yenilənir.

Digər aktivlər

Digər aktivlər ilkin tanınma zamanı ədalətli dəyərlə ölçülür və daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəlikləri və kapital

Borc və ya kapital alətləri olaraq təsnifat

Borc və kapital alətləri müqavilə üzrə razılaşmaların mahiyyəti və maliyyə öhdəliyinin və səmərəli alətin anlayışlarına uyğun olaraq maliyyə öhdəlikləri və ya kapital kimi təsnif edilir.

Kapital alətləri

Kapital aləti bütün öhdəliklər çıxıldıqdan sonra müəssisənin aktivlərində qalıq paylarını göstərən hər hansı müqavilədir. Təşkilatın buraxdığı kapital alətləri birbaşa emissiya xərcləri çıxılmaqla daxil olan gəlirlərin cəmi həcmində tanınır.

Təşkilatın öz kapital alətlərinin geri alınması birbaşa kapitalda tanınır və cəmi məbləğdən çıxılır. Eyni zamanda, Təşkilatın öz kapital alətlərinin alınması, satılması, buraxılması və ya ləğv edilməsi üzrə mənfəət və ya zərər hesablarında heç bir gəlir və ya zərər tanınmır.

Maliyyə öhdəlikləri

Təşkilat maliyyə öhdəliyinin tanınmasını onun şərtləri dəyişdikdə və dəyişmiş bu şərtlər üzrə pul vəsaitlərinin axını əvvəlkindən əhəmiyyətli dərəcədə fərqləndikdə dayandırır. Belə olan halda dəyişmiş şərtlər əsasında yeni maliyyə öhdəliyi ədalətli dəyərdə tanınır. Maliyyə öhdəliyinin balans dəyərindəki fərq ləğv edilir və dəyişmiş şərtlərlə yeni maliyyə öhdəliyi mənfəət və ya zərərdə tanınır.

Ödənilmiş kompensasiyaya ötürülmüş qeyri-maliyyə aktivləri (əgər varsa) və yeni dəyişdirilmiş maliyyə öhdəliyi də daxil olmaqla öhdəliklərin qəbul edilməsi daxildir.

Təşkilat keyfiyyət amilləri, kəmiyyət amilləri və birlikdə keyfiyyət və kəmiyyət amillərini nəzərə alaraq dəyişikliyin əhəmiyyətli olub-olmadığının kəmiyyət və keyfiyyət qiymətləndirməsini aparır. Təşkilat aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq dəyişikliyin əhəmiyyətli olduğu qənaətinə gəlir:

- maliyyə öhdəliyinin valyutasının dəyişməsi;
- girov və ya digər kredit təminatında dəyişikliyin baş verməsi;
- konvertasiya funksiyasının daxil edilməsi;
- maliyyə öhdəliyində subordinasiyanın dəyişməsi.

Yeni şərtlərə əsasən, alınmış haqlar çıxılmaqla ödənilmiş haqlar daxil və ilkin effektiv faiz dərəcəsinə əsasən diskontlaşdırılmaqla, diskontlaşdırılmış cari dəyər ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin diskontlaşdırılmış cari dəyərindən ən azı 10 faiz fərqləndikdə kəmiyyət qiymətləndirməsinin şərtləri əhəmiyyətli dərəcədə dəyişir.

Maliyyə öhdəliyində dəyişiklik tanınmanın dayandırılmasına səbəb olmadıqda öhdəliyin amortizasiya edilmiş dəyəri dəyişikliyə uğramış pul vəsaitlərinin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılması və alınan gəlir və ya zərərin mənfəət və ya zərərdə tanınması ilə təkrar hesablanır. Dəyişən dərəcəli maliyyə öhdəlikləri üçün dəyişmiş gəlir və ya zərəri hesablamaq məqsədilə istifadə edilən ilkin effektiv faiz dərəcəsinə dəyişiklik zamanı cari bazar şərtlərini əks etdirməsi üçün düzəlişlər edilir. Bununla bağlı yaranan hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərinə düzəliş kimi tanınır və alət üzərində effektiv faiz dərəcəsinin təkrar hesablanması yolu ilə dəyişikliyə uğramış maliyyə öhdəliyinin qalan müddəti üzrə amortizasiya edilir.

Borc alınmış vəsaitlər

Borc alınmış vəsaitlər banklar və digər maliyyə təşkilatları tərəfindən nağd pul və ya digər aktivlərin Təşkilata verildiyi zaman uçota alınır. Qeyri-derivativ öhdəlik amortizasiya olunmuş dəyərində qeydə alınır. Təşkilat öz borcunu alırsa, öhdəlik maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun silinməsindən yaranan gəlir və ya zərərə daxil edilir.

Buraxılmış borc qiymətli kağızları

Buraxılmış borc qiymətli kağızları amortizasiya olunmuş maya dəyərində əks etdirilir. Əgər Təşkilat özünün buraxılmış borc qiymətli kağızlarını alırsa, onlar maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş kompensasiya arasındakı fərq borcun vaxtından əvvəl silinməsindən yaranan gəlirlərə daxil edilir.

İcarə öhdəlikləri

Əgər müqavilə müavinət müqabilində müəyyən edilmiş aktivin istifadəsinə nəzarət etmək hüququnu verirsə, Təşkilat müqavilənin başlanğıcında müqavilənin icarə olub-olmamasını qiymətləndirir.

Təşkilat qısamüddətli icarələr və aşağıdəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçmə yanaşmasını tətbiq edir. Təşkilat lizinq ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini və əsas aktivlərdən istifadə hüququnu təmsil edən istifadə hüququ olan aktivləri tanıyır.

İcarənin başlanğıc tarixində Təşkilat icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə həmçinin Təşkilat tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Təşkilatın ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Təşkilat icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin balans dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

Digər öhdəliklər

Digər öhdəliklər ilkin olaraq ədalətli dəyərdə ölçülür və sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə amortizasiya olunmuş dəyərlə ölçülür.

Səhmdar kapitalı

Adi səhmlər kapital kimi təsnifləşdirilir. Adi səhmlərin və səhm opsionlarının buraxılmasına bilavasitə aid edilə bilən xərclər vergiqoyma baxımından heç bir nəticə olmadan kapitaldan tutulma kimi uçota alınır.

Təşkilatın dividendləri elan edib ödəmək imkanı Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir.

Adi səhmlərə aid olan dividendlər elan edildiyi müddətdə bölüşdürülməmiş mənfəətin mənimsənilməsi kimi əks olunur.

Ehtiyatlar və şərti öhdəliklər

Ehtiyatlar keçmiş bir hadisə nəticəsində mövcud öhdəliklərin, ehtimal ki, Təşkilatdan iqtisadi mənbələrin çıxmasına səbəb olacağı və məbləğlərin etibarlı şəkildə qiymətləndirilə biləcəyi zaman tanınır. Dəyişmənin vaxtı və ya məbləği hələ də qeyri-müəyyən ola bilər. Mövcud öhdəlik, keçmiş hadisələr nəticəsində yaranan hüquqi və ya konstruktiv öhdəliklərin mövcudluğundan yaranır.

Qarantiya tələbləri və digər balansdankənar öhdəliklər üzrə öhdəliklər öhdəliklərin yerinə yetirilməsi üçün əsaslandırılmış və məqbul bir əminlik olduqda tanınır. Ehtimal olunan qalıqlar müştəri hesablarının debetləşməsi ilə tanınır. Mənfəət və zərər hesabında ödəniş ehtimal olunan bərpalar çıxılmaqla göstərilir. Gələcək əməliyyat zərərləri üzrə ehtiyatlar tanınmır.

Ehtiyatlar pulun vaxt dəyərinin əhəmiyyətli olduğu hallarda onların cari dəyərlərinə endirilir.

Bütün ehtiyatlar hər bir hesabat tarixində nəzərdən keçirilir və ən yaxşı qiymətləndirməni əks etdirmək üçün düzəldilir.

Mövcud öhdəliklər nəticəsində iqtisadi mənbələrin mümkün axınının qeyri-mümkün və ya uzaq hesab edildiyi hallarda, müəssisələrin birləşməsi zamanı qəbul edilmədiyi təqdirdə, heç bir öhdəlik tanınmır.

Təqaüd və digər müavinətlər üzrə öhdəliklər

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, dövlət təqaüd sistemi işəgötürən tərəfindən cari ödənişlərin işçilərə cari ümumi ödənişlərdə faizlə hesablanmasını təmin edir. Bu xərc müvafiq əmək haqqının alındığı dövrə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilir. Təşkilat Azərbaycan Respublikasının dövlət təqaüd sistemi tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Təşkilatda hesablanması tələb olunan təqaüd müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

Faiz gəliri və xərcinin tanınması

Faiz gəlirləri və xərcləri effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə mənfəət və zərərdə tanınır. "Effektiv faiz dərəcəsi" maliyyə alətinin gözlənilən istifadə müddəti boyu gələcək pul ödənişləri və alışlarını dəqiq olaraq:

- maliyyə aktivinin ümumi balans dəyərinədək; və ya
- maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinədək diskontlaşdıran dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş aktivlər istisna olmaqla, digər maliyyə alətləri üçün effektiv faiz dərəcəsini hesablayarkən Təşkilat gələcək pul vəsaitlərini maliyyə alətlərinin bütün müqavilə şərtlərini nəzərə almaqla, lakin kredit zərərlərini nəzərə almadan qiymətləndirir. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün kredit üzrə tənzimlənmiş effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri daxil olmaqla gələcək pul vəsaitlərindən istifadə edilməklə hesablanır.

Effektiv faiz dərəcəsinin hesablanmasına effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan əməliyyat xərcləri və ödənilmiş və ya alınmış haqlar və ya bəndlər daxildir. Əməliyyat xərclərinə maliyyə aktivi və ya maliyyə öhdəliyinin alınmasına və ya verilməsinə bilavasitə tətbiq edilə bilən məxsusi xərclər daxildir.

Amortizasiya edilmiş dəyər və ümumi balans dəyəri

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin "amortizasiya edilmiş dəyəri" maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınmada əsas ödənişləri çıxmaqla, ilkin məbləğ və ödəniş məbləği arasında hər hansı fərqin effektiv faiz metodundan istifadə etməklə, xalis amortizasiyanı daxil etməklə və ya çıxmaqla və maliyyə aktivləri üçün hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırmaqla hesablanan məbləğdir.

Amortizasiya olunmuş dəyərində hesablanan "maliyyə aktivinin ümumi balans dəyəri" maliyyə aktivinin hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırılmazdan əvvəl amortizasiya edilmiş dəyəridir.

Faiz gəlirləri və xərclərinin hesablanması

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsi maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınması zamanı hesablanır. Faiz gəlirləri və ya xərclərinin hesablanması zamanı effektiv faiz dərəcəsi aktivin (aktiv kredit üzrə dəyərsizləşmədikdə) ümumi balans dəyərinə və ya öhdəliyin amortizasiya edilmiş dəyərinə tətbiq edilir. Effektiv faiz dərəcəsi faizin bazar dərəcələrində yerdəyişmələri əks etdirməsi üçün dəyişən dərəcəli alətlərin pul hərəkətinin dövri olaraq təkrar qiymətləndirilməsinin nəticəsi olaraq yenilənir.

Effektiv faiz dərəcəsi, hedc düzəlişlərinin amortizasiyası başlandığı tarixdə ədalətli dəyər üzrə hedc düzəlişlərində dəyişikliklərlə bağlı yenidən təhlil olunur.

Lakin ilkin tanınmadan sonra kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üzrə faiz gəlirləri isə effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya edilmiş dəyərinə tətbiq etməklə hesablanır. Aktiv artıq kredit üzrə dəyərsizləşmiş olmadıqda faiz gəlirlərinin hesablanması yenə də ümumi balans dəyəri üzərindən hesablanır.

Təqdimat

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan effektiv faiz metodundan istifadə etməklə hesablanan faiz gəlirlərinə aşağıdakılar daxildir:

- amortizasiya edilmiş dəyərdə hesablanan maliyyə aktivləri üzrə faizlər.

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan faiz xərclərinə aşağıdakılar daxildir:

- amortizasiya olunmuş dəyərdə hesablanan maliyyə öhdəlikləri üzrə faizlər.

Haqq və komissiya gəliri və xərci

Maliyyə aktivi və ya maliyyə öhdəliyi üzrə effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan haqq və komissiya gəlirləri və xərcləri effektiv faiz dərəcəsinə daxil edilir.

Kreditlə əlaqəli haqlar, kredit xidməti haqları və kredit gəlirliliyinin ayrılmaz tərkib hissəsi sayılan digər haqlar müvafiq əməliyyat xərcləri ilə birlikdə effektiv faiz üsulundan istifadə etməklə maliyyə alətinin ehtimal olunan müddəti boyu faiz gəlirlərinə köçürülür və amortizasiya edilir.

Mühasibat xidməti haqları, investisiya idarəçiliyi haqları, satış komissiyası, yerləşdirmə haqları və sindikasiya haqları daxil olmaqla, digər haqq və komissiya gəlirləri müvafiq xidmətlər göstərildikcə tanınır. Kredit öhdəliyi üzrə kredit vəsaitlərinin istifadəsi gözlənilmədiyi halda kredit öhdəliyi üzrə əlaqədar haqlar öhdəlik dövrü boyu düz xətt metodu əsasında tanınır.

Ümumi və inzibati xərclər

Ümumi və inzibati xərclər xidmətdən istifadə edildikdə və ya yaranma tarixində mənfəət və ya zərərdə tanınır.

Vergi qanunvericiliyi

Mənfəət vergisi xərci cari və təxirə salınmış vergi xərcinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti məcmu gəlir haqqında hesabatda bildirildiyi kimi xalis mənfəətdən fərqlənir. Təşkilatın cari vergi xərcləri hesabat dövrünün sonuna qüvvədə olan və ya mahiyyətcə qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun balans dəyərləri ilə onların vergiyə uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman öhdəlik üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəlikləri, ümumiyyətlə, bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (müəssisələrin birləşməsi istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış mənfəət vergisi aktivlərinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergi öhdəliyin ödənildiyi və ya aktivin realizə edildiyi dövrdə tətbiq edilməsi ehtimal olunan vergi dərəcələri ilə hesablanır. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və ya zərər və digər məcmu gəlir üzrə hesabatda əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır. Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə maliyyə vəziyyəti haqqında hesabatda təqdim edilə bilər:

- Təşkilatın cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

Azərbaycan Respublikasında Təşkilatın fəaliyyətinə görə hesablanan müxtəlif digər vergilər də mövcuddur. Bu vergilər ümumi və inzibati xərclərin bir hissəsi kimi tanınır və mənfəət və ya zərər və digər məcmu gəlir hesabatına daxil edilir.

Səhm üzrə mənfəət

Səhm üzrə mənfəət Təşkilatın səhmdarlarının payına düşən mənfəət və ya zərəri hesabat ili ərzində dövriyyədə olan adi səhmlərin orta sayına bölməklə hesablanır.

3 UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Təşkilatın maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin edilməsini tələb edir. Rəhbərlik mütəmadi olaraq öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər çərçivəsində məntiqli hesab edilən digər faktlara əsaslandırır. Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

EOKZ ehtiyatının ölçülməsi

EOKZ-nin ölçülməsi metodologiyanın, modellərin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirən mühüm bir təxmindir. EOKZ-nin ölçülməsi üzrə metodologiya 26 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyatı üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenari modelləri.

Təşkilat, müntəzəm olaraq, ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ-nin ölçülməsi üzrə ətraflı məlumatlar 26 saylı Qeyddə açıqlanır.

Kredit Riski üzrə Əhəmiyyətli Artım ("KRƏA")

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Təşkilat, hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilk dəfə tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda kredit riskinin müəyyən bir səviyyəsinə çatmaq üçün deyil, kredit riskinin nisbi artımını təyin etmək məqsədilə nəzərdən keçirilir. Təşkilat müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcəkyönümlü məlumatları nəzərə alır. Təşkilatın rəhbərliyi kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən öncə təyin etmiş və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan gələcəkyönümlü məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə almışdır. 26 saylı Qeydə nəzər salın.

İcarə öhdəlikləri və istifadə hüququ olan aktivlərin qiymətləndirilməsi

16 saylı MHBS-nin tətbiqi istifadə hüququ olan aktivlər və icarə öhdəliklərinə dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Təşkilat yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir.

İcarə öhdəliklərini ölçmək üçün istifadə edilən müvafiq diskont dərəcəsini müəyyən etmək üçün təxminlər tələb olunur. Təşkilat icarədə nəzərdə tutulan faiz dərəcəsini dərhal müəyyən edə bilmir və bu səbəbdən icarə öhdəliklərinin ölçülməsi üçün əlavə faiz dərəcəsindən (ƏFD) istifadə edir. ƏFD Təşkilatın oxşar şərt və oxşar girovla oxşar iqtisadi mühitdə istifadə hüququ olan aktivə oxşar dəyərli aktivin əldə edilməsi üçün tələb olunan vəsaitlərin borca alınması üçün ödəməli olduğu faiz dərəcəsidir. Beləliklə, ƏFD Təşkilatın nəyi "ödəməli olduğunu" əks etdirir, bu isə heç bir müşahidə edilən dərəcələr olmadıqda (məs. Təşkilat maliyyə əməliyyatları aparmadıqda) və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda (məs. icarələr Təşkilatın funksional valyutasında olmadıqda) qiymətləndirilmənin aparılmasını tələb edir. Təşkilat ƏFD-ni mümkün olduqda müşahidə edilən giriş məlumatlarından (bazardakı faiz dərəcələri kimi) istifadə etməklə qiymətləndirir və Təşkilatdan müəssisənin xüsusiyyətlərini nəzərə almaqla (məs. Təşkilatın kredit reytinqi) müəyyən qiymətləndirmələr aparmaq tələb olunur.

3-cü Mərhələ lombard kreditləri üzrə EOKZ-nin ölçülməsi

Rəhbərlik 90 gündən artıq vaxtı keçmiş qalıqları olan qızıl girovları ilə təminat verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərərlərini qiymətləndirərkən əhəmiyyətli mühakimə irəli sürmüşdür.

Bu kreditlərin vaxtı keçmiş olmasına baxmayaraq, rəhbərlik qızıl girovunun yüksək likvidlik xarakteri və son illər ərzində qızıl qiymətlərində əhəmiyyətli artım səbəbindən tam dəyərsizləşmənin tələb olunmadığı qərarı almışdır. Rəhbərlik girovun bərpa oluna biləcək dəyərinin kredit qalıqlarının bərpasını dəstəkləməyə davam edəcəyini proqnozlaşdırır.

Bundan əlavə, rəhbərliyin bərpa strategiyası, girov təminatının dəyəri müvafiq kredit üzrə riskə məruz qalmanı kifayət qədər qarşıladığı hallarda hüquqi icra prosedurlarının başlanılmasını nəzərdə tutur. Yuxarıdakı qeydlərə əsasən rəhbərlik qeydə alınmış ehtimal olunan kredit zərəri ehtiyatının müvafiq olduğunu düşünür.

Köhnələ bilən və amortizasiya oluna bilən aktivlərin faydalı istifadə müddəti

Rəhbərlik aktivlərin Təşkilat üçün ehtimal olunan faydalı istifadə müddətinə əsaslanaraq, hər bir hesabat tarixində investisiya mülkiyyəti, əmlak və avadanlıqlar, qeyri-maddi aktivlər və aktivlərdən istifadə hüququ daxil olmaqla, köhnələ bilən və amortizasiya oluna bilən aktivlərin faydalı istifadə müddətlərini nəzərdən keçirir. Bununla belə, faktiki nəticələr texniki köhnəlmə, xüsusən də proqram təminatı və İT avadanlıqları ilə əlaqədar olaraq dəyişə bilər.

Məhkəmə işləri

Təşkilat, həllini gözləyən işlər və ya danışıqlar yolu ilə həll, vasitəçilik, arbitraj və ya dövlət tənzimlənməsi kimi digər cari iddialar, həmçinin digər şərti öhdəliklər ilə bağlı ehtiyatların ölçülməsi və tanınmasında və şərti öhdəliklərə məruz qalma məsələlərində əhəmiyyətli mühakimələr yürüdür. Mühakimələrin yürüdülməsi qaldırılmış iddiaların baş tutması və ya öhdəliklərin yaranması ehtimalının qiymətləndirilməsində və başa çatmış hesablaşmanın mümkün hədlərini dəyərləndirmək üçün əhəmiyyətlidir. Qiymətləndirmə prosesində qətiyyətsizliklər ucbatından əsl zərərlər qiymətləndirilmiş zərərlərdən fərqli ola bilər.

Bu qiymətləndirmələr daxili mütəxəssislərin (mövcud olduğu hallarda) və ya hüquq məsləhətçisi kimi kənar məsləhətçilərin dəstəyi ilə formalaşdırılmış yeni məlumatlara əsasən dəyişdirilə bilər. Qiymətləndirmələrə yenidən baxılması gələcək əməliyyat nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Cari mənfəət vergisi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Bundan əlavə, vergi orqanları tərəfindən Təşkilatın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin şərhi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Nəticədə, Təşkilata əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, üç təqvim ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlama aparıla bilər. Müəyyən hallarda yoxlamalar daha uzun müddəti əhatə edə bilər.

4 YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Təşkilat Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Təşkilatın fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı MUBS-a** düzəliş dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni və yenidən işlənmiş standartların və şərhlərin Təşkilatın maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

5 DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Təşkilat tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Təşkilat qüvvəyə mindiyi təqdirdə bu yeni və düzəliş edilmiş standartlar və şərhləri qəbul etməyi nəzərdə tutur.

30 may 2024-cü il tarixində MUBSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS "Maliyyə Alətləri"** və **7 saylı MHBS "Maliyyə Alətləri: Məlumatların Açıqlanması"**na düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD-də ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində MUBSŞ **"MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild"**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
- 9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- 10 saylı MHBS: "De-fakto agent"inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı MUBS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

2024-cü ilin dekabr ayında MUBSŞ **"Təbiət Amillərindən Asılı Elektrik Enerjisinə İstinad edən Müqavilələr" dərc etmişdir (9 saylı MHBS və 7 saylı MHBS-yə Düzəlişlər)**. Düzəlişlər bərpa olunan enerji bazarlarında getdikcə daha geniş istifadə olunan, pul vəsaitlərinin hərəkəti külək və ya günəş işığı kimi təbii şəraitdən asılı olaraq dəyişən müəyyən uzunmüddətli elektrik enerjisinin satınalma müqavilələrinin və oxşar müqavilələrin uçotunu əhatə edir.

Düzəlişlərə əsasən təchiz olunan elektrik enerjisinin həcmi (və müvafiq olaraq pul vəsaitlərinin hərəkəti) təbiət amillərindən asılı olaraq dəyişsə belə, təbiət amillərindən asılı elektrik enerjisinə istinad edən müqavilələr yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olan pul vəsaitlərinin hərəkəti (YƏMFÖ) meyarına cavab verə bilər. 9 saylı MHBS üzrə müvafiq olan bütün digər şərtlər yerinə yetirildiyi halda, bu cür müqavilələr amortizasiya olunmuş dəyər və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə (DMGVƏD) ölçülə bilər.

Əlavə olaraq, düzəlişlər 7 saylı MHBS çərçivəsində məqsədyönlü açıqlama tələbləri təqdim edir ki, bu da maliyyə hesabatlarının istifadəçilərinə həmin müqavilələrin müəssisənin maliyyə vəziyyətinə, maliyyə nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsirini, o cümlədən həcm riski və qiymət mexanizmləri barədə məlumatları anlamağa şərait yaradır.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur və erkən tətbiqinə icazə verilir. İlkin tətbiq zamanı müqayisəli məlumatların yenidən təsnifləşdirilməsi tələb olunmur.

9 aprel 2024-cü il tarixində MUBSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə kömək edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət göstəriciləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında MUBSŞ tərəfindən 19 saylı **"İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Mühasibat Uçot Standartlarına uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

2025-ci ilin avqust ayında MUBSŞ standarta dəyişikliklər dərc etmişdir. Bu dəyişikliklər 2021-ci ilin fevral ayından 2024-cü ilin may ayınadək dərc edilmiş yeni və düzəliş edilmiş MHBS Mühasibat Uçotu Standartlarını əks etdirmək məqsədilə 19 saylı MHBS-ni yeniləyir və azaldılmış açıqlama çərçivəsinin cari MHBS Mühasibat Uçotu Standartlarının tələblərinə uyğunluğunu təmin edir.

Düzəlişlər yeni dərc olunmuş standartlar və düzəlişlərdən yaranan dəyişiklikləri əhatə etmək məqsədilə 19 saylı MHBS daxilində açıqlama tələblərini yenidən nəzərdən keçirir və əlavə edir. Eyni zamanda, 19 saylı MHBS-nin məqsədini MHBS Mühasibat Uçotu Standartlarını tətbiq edən və ictimai hesabatlılığı olmayan uyğun törəmə müəssisələr üçün açıqlama yükünün azaldılmasını qoruyub saxlayır.

Düzəlişlər 19 saylı MHBS-nin tətbiq edilməsi üçün uyğunluq meyarlarını dəyişmir və törəmə müəssisələr tərəfindən tətbiq olunan tanınma və ya ölçülmə tələblərinə təsir göstərmir. Bunun əvəzinə, düzəlişlərə əsasən 19 saylı MHBS-ni tətbiq edən müəssisələr MHBS Mühasibat Uçotu Standartlarının işlənib hazırlanmasında müvafiq və qərar qəbuletmə üçün faydalı olan açıqlamalar verməlidirlər.

Yeni standart 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

2025-ci ilin noyabr ayında MUBSŞ **Hiperinflyasiyalı Təqdimat Valyutasına Çevrilməni (21 saylı BAS-a düzəlişlər)** dərc etmişdir. Dəyişiklik əsasən 21 saylı BAS-da mövcud boşluğun aradan qaldırılmasına yönəlmişdir, buraya müəssisənin funksional valyutası hiperinflyasiyalı olmadığı təqdirdə, müəssisənin təqdimat valyutası hiperinflyasiyalı olduğu hallar şamil olunur.

Düzəlişlər müəssisə tərəfindən maliyyə hesabatlarının hiperinflyasiyalı təqdimat valyutasına çevrilməsi, o cümlədən müqayisəli məlumatların təqdim olunması qaydalarını müəyyən edir. Xüsusilə də, düzəlişlərə əsasən müəssisə maliyyə hesabatlarını hiperinflyasiyalı valyutada təqdim etdiyi zaman müəssisənin funksional valyutası hiperinflyasiyalı olmadığı halda belə təqdimat valyutasına "Hiperinflyasiyalı İqtisadiyyatlarda Maliyyə Hesabatlılığı" adlı 29 saylı BAS standartını tətbiq edir.

Düzəlişlər hiperinflyasiyalı valyutada təqdim olunan maliyyə hesabatlarının hiperinflyasiyanın təsirlərini maliyyə hesabatlarının istifadəçiləri üçün müvafiq şəkildə əks etdirməsini təmin etməklə ardıcıllığı və müqayisəliliyi artırır.

Düzəlişlər 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Assosiasiya edilmiş və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı MUBS (düzəlişlər): 10 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişlər investor, onun assosiasiya edilmiş və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin assosiasiya edilmiş və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya edilmiş və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MUBSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər"** və **MHBS S2 "İqlim ilə əlaqədar açıqlamalar"** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir, bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir.

BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir. Hazırkı hesabat tarixində bu standartlar Təşkilat fəaliyyət göstərdiyi yurisdiksiya tərəfindən qəbul edilməmişdir.

Əksi göstərilmədiyi təqdirdə, yeni və yenidən işlənmiş standartların və şərhlərin Təşkilatın maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

6 PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Kassadakı nağd pul vəsaitləri	1,129,059	1,427,401
Müxbir hesablar		
- reytinqi "BB-"dən "BB+"dək	701,066	306,342
- reytinqi "B-"dən "B+"dək	17,504	269,134
- reytinqsiz	68,517	17,226
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**1,916,146**	**2,020,103**

Reytinqlər "Fitch" reytinq sisteminə əsaslanır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə bütün qalıqlar 1-ci Mərhələdədir və onların EOKZ-si əhəmiyyətsiz olmuşdur.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində mərhələlər arasında köçürmələr mövcud olmamışdır.

7 MALİYYƏ TƏŞKİLATLARINDAN ALINACAQ VƏSAİTLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Rezident maliyyə təşkilatlarına verilmiş kreditlər	2,099,600	-
Maliyyə təşkilatlarından alınacaq ümumi məbləğ	**2,099,600**	-
Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat	-	-
Maliyyə təşkilatlarından alınacaq xalis məbləğ	**2,099,600**	-

Maliyyə təşkilatlarından alınacaq məbləğlər reytinqsizdir və illik faiz dərəcəsi 18% təşkil edir.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə maliyyə təşkilatlarından alınacaq vəsaitlər üzrə hesablanmış faiz gəlirləri müvafiq olaraq 19,600 AZN və sıfır AZN təşkil etmişdir.

8 MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

	31 dekabr 2025-ci il		31 dekabr 2024-cü il	
	Məbləğ	Ümumi kreditlərin %-i	Məbləğ	Ümumi kreditlərin %-i
Fiziki şəxslərə verilmiş kreditlər				
Lombard kreditləri	48,299,238	91.63	33,332,435	86.36
İstehlak kreditləri	4,414,560	8.37	4,761,620	12.34
Cəmi fiziki şəxslərə verilmiş kreditlər	**52,713,798**	**100.00**	**38,094,055**	**98.70**
Korporativ müştərilərə verilmiş kreditlər				
Ticarət və xidmətlər	-	-	501,750	1.30
Cəmi korporativ müştərilərə verilmiş kreditlər	**-**	**-**	**501,750**	**1.30**
Müştərilərə verilmiş ümumi kreditlər	**52,713,798**	**100.00**	**38,595,805**	**100.00**
Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat	(1,457,023)		(635,714)	
Müştərilərə verilmiş xalis kreditlər	**51,256,775**		**37,960,091**	

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlər illik faiz dərəcələri 5% ilə 72% arasında (31 dekabr 2024-cü il: 12% ilə 72% arası) dəyişir.

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlər üzrə hesablanmış faiz gəliri 1,643,823 AZN (31 dekabr 2024-cü il: 1,343,602 AZN) təşkil etmişdir.

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə müştərilərə verilmiş kreditlərin ümumi balans dəyərinin dövrün əvvəlinə və sonuna olan qalıqlarının üzləşdirilməsi göstərilir.

	1-ci Mərhələ	2-ci Mərhələ	3-cü Mərhələ	Cəmi
1 yanvar 2025-ci il tarixinə	**34,884,000**	**2,669,965**	**1,041,840**	**38,595,805**
1-ci Mərhələyə keçid	23,755	(23,755)	-	-
2-ci Mərhələyə keçid	(4,963,290)	4,963,290	-	-
3-cü Mərhələyə keçid	(2,228,670)	(82,885)	2,311,555	-
Əldə edilmiş və ya satın alınmış yeni aktivlər	117,681,147	-	-	117,681,147
Yenidən ödənilmiş aktivlər	(100,030,932)	(2,609,477)	(780,194)	(103,420,603)
Yığılmış faizdə xalis dəyişiklik	130,262	74,234	374,608	579,104
Təxirə salınmış kredit əldə edilməsi xərclərində xalis dəyişiklik	(221,074)	(20,818)	(11,999)	(253,891)
Silinmələr	-	-	(467,764)	(467,764)
31 dekabr 2025-ci il tarixinə	**45,275,198**	**4,970,554**	**2,468,046**	**52,713,798**

	1-ci Mərhələ	2-ci Mərhələ	3-cü Mərhələ	Cəmi
1 yanvar 2024-cü il tarixinə	**24,817,991**	**3,537,952**	**3,336,398**	**31,692,341**
1-ci Mərhələyə keçid	75,862	(62,378)	(13,484)	
2-ci Mərhələyə keçid	(2,641,406)	2,664,406	(23,000)	-
3-cü Mərhələyə keçid	(785,118)	(79,129)	864,247	-
Əldə edilmiş və ya satın alınmış yeni aktivlər	80,505,167	-	-	80,505,167
Yenidən ödənilmiş aktivlər	(66,944,244)	(3,388,311)	(2,378,952)	(72,711,507)
Yığılmış faizdə xalis dəyişiklik	329,441	18,260	228,146	575,847
Təxirə salınmış kredit əldə edilməsi xərclərində xalis dəyişiklik	(473,693)	(20,835)	22,242	(472,286)
Silinmələr	-	-	(993,757)	(993,757)
31 dekabr 2024-cü il tarixinə	**34,884,000**	**2,669,965**	**1,041,840**	**38,595,805**

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın dövrün əvvəlinə və sonuna olan qalıqlarının üzləşdirilməsi göstərilir.

	1-ci Mərhələ	2-ci Mərhələ	3-cü Mərhələ	Cəmi
1 yanvar 2025-ci il tarixinə	**(124,914)**	**(60,602)**	**(450,198)**	**(635,714)**
1-ci Mərhələyə keçid	(24)	24	-	-
2-ci Mərhələyə keçid	45,268	(45,268)	-	-
3-cü Mərhələyə keçid	1,046,116	53,424	(1,099,540)	-
Əldə edilmiş və ya satın alınmış yeni aktivlər	(1,225,818)	-	-	(1,225,818)
Zərər üzrə ehtiyatın xalis yenidən ölçülməsi	99,808	7,115	47,950	154,873
Silinmələr	-	-	467,764	467,764
Diskonta düzəliş edilməsi			(218,128)	(218,128)
31 dekabr 2025-ci il tarixinə	**(159,564)**	**(45,307)**	**(1,252,152)**	**(1,457,023)**

	1-ci Mərhələ	2-ci Mərhələ	3-cü Mərhələ	Cəmi
1 yanvar 2024-cü il tarixinə	**(34,310)**	**(49,229)**	**(1,328,691)**	**(1,412,230)**
1-ci Mərhələyə keçid	(14,032)	561	13,471	-
2-ci Mərhələyə keçid	60,560	(83,524)	22,964	-
3-cü Mərhələyə keçid	283,362	36	(283,398)	-
Əldə edilmiş və ya satın alınmış yeni aktivlər	(367,404)	-	-	(367,404)
Zərər üzrə ehtiyatın xalis yenidən ölçülməsi	(53,090)	71,554	303,291	321,755
Silinmələr	-	-	993,757	993,757
Diskonta düzəliş edilməsi	-	-	(171,592)	(171,592)
31 dekabr 2024-cü il tarixinə	**(124,914)**	**(60,602)**	**(450,198)**	**(635,714)**

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur. Cədvəldəki məbləğlər ümumi balans dəyərlərini əks etdirir.

	1-ci Mərhələ	2-ci Mərhələ	3-cü Mərhələ	Cəmi
Vaxtı keçməmiş	36,876,982	1,530,929	208,340	38,616,251
Vaxtı 30 gündən az keçmiş	8,398,216	775,063	109,607	9,282,886
Vaxtı 30-89 gün keçmiş	-	2,664,562	88,253	2,752,815
Vaxtı 90-179 gün keçmiş	-	-	573,476	573,476
Vaxtı 180-360 gün keçmiş	-	-	281,505	281,505
Vaxtı 360 gündən çox keçmiş	-	-	1,206,865	1,206,865
Cəmi müştərilərə verilmiş ümumi kreditlər	**45,275,198**	**4,970,554**	**2,468,046**	**52,713,798**
Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat	(159,564)	(45,307)	(1,252,152)	(1,457,023)
31 dekabr 2025-ci il tarixinə balans dəyəri	**45,115,634**	**4,925,247**	**1,215,894**	**51,256,775**

	1-ci Mərhələ	2-ci Mərhələ	3-cü Mərhələ	Cəmi
Vaxtı keçməmiş	26,867,808	393,954	46,577	27,308,339
Vaxtı 30 gündən az keçmiş	7,864,641	423,343	22,609	8,310,593
Vaxtı 30-89 gün keçmiş	151,551	1,846,804	85,376	2,083,731
Vaxtı 90-179 gün keçmiş	-	5,864	572,335	578,199
Vaxtı 180-360 gün keçmiş	-	-	162,362	162,362
Vaxtı 360 gündən çox keçmiş	-	-	152,581	152,581
Cəmi müştərilərə verilmiş ümumi kreditlər	**34,884,000**	**2,669,965**	**1,041,840**	**38,595,805**
Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat	(124,914)	(60,602)	(450,198)	(635,714)
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**34,759,086**	**2,609,363**	**591,642**	**37,960,091**

Girovun maliyyə təsiri (i) girov və digər kredit portfelinin keyfiyyətinin artırılması aktivin ümumi balans dəyərinə bərabər və ya ondan artıq olduğu aktivlər üçün ("dəyəri kredit məbləğindən artıq təminatlı aktivlər") və (ii) girov və digər kredit portfelinin keyfiyyətinin artırılması aktivin ümumi balans dəyərindən az olan aktivlər üçün ("dəyəri kredit məbləğindən az təminatlı aktivlər") girov dəyərlərinin ayrıca açıqlanması yolu ilə təqdim olunur

	Dəyəri kredit məbləğindən artıq təminatlı kreditlər		Dəyəri kredit məbləğindən az təminatlı kreditlər	
31 dekabr 2025-ci il	**Kreditlərin ümumi balans dəyəri**	**Saxlanılan girovun ədalətli dəyəri**	**Kreditlərin ümumi balans dəyəri**	**Saxlanılan girovun ədalətli dəyəri**
Fiziki şəxslər – Lombard kreditləri	47,337,803	107,297,405	961,435	568,312
Fiziki şəxslər – İstehlak kreditləri	273,053	655,250	4,141,507	236,000

31 dekabr 2024-cü il	Dəyəri kredit məbləğindən artıq təminatlı kreditlər		Dəyəri kredit məbləğindən az təminatlı kreditlər	
	Kreditlərin ümumi balans dəyəri	Saxlanılan girovun ədalətli dəyəri	Kreditlərin ümumi balans dəyəri	Saxlanılan girovun ədalətli dəyəri
Fiziki şəxslər – Lombard kreditləri	33,280,896	76,023,407	51,540	43,507
Fiziki şəxslər – İstehlak kreditləri	1,022,348	1,588,300	3,739,271	2,285,245
Korporativ müştərilər – Ticarət və xidmətlər	-	-	501,750	-

Aşağıdakı açıqlamalar kreditin ümumi balans dəyərindən və götürülmüş girovun ədalətli dəyərindən daha aşağı olan hissəni əks etdirir; digər hissəsi təminatsız risklər çərçivəsində açıqlanır. Kreditlərin ümumi balans dəyəri girov kimi götürülmüş aktivlərin likvidliyi əsasında ayrılmışdır. Girovların ədalətli dəyəri girov kimi qəbul edilən aktivlərin vəziyyəti və yerləşdiyi yer nəzərə alınmaqla müəyyən edilmişdir. Təşkilat girovların qiymətləndirilməsində müstəqil qiymətləndiricilərdən istifadə edir.

	Ümumi balans dəyəri	EOKZ üzrə ehtiyat	Balans dəyəri	Qiymətli metallar və zərgərlik	Motorlu nəqliyyat vasitələri	Daşınmaz əmlak	Cəmi
31 dekabr 2025-ci il							
Fiziki şəxslərə verilmiş kreditlər:							
Lombard kreditləri	48,299,238	(1,240,504)	47,058,734	47,905,730	-	-	47,905,730
İstehlak kreditləri	4,414,560	(216,519)	4,198,041	-	647	508,406	509,053
Cəmi	**52,713,798**	**(1,457,023)**	**51,256,775**	**47,905,730**	**647**	**508,406**	**48,414,783**

	Ümumi balans dəyəri	EOKZ üzrə ehtiyat	Balans dəyəri	Qiymətli metallar və zərgərlik	Motorlu nəqliyyat vasitələri	Daşınmaz əmlak	Cəmi
31 dekabr 2024-cü il							
Fiziki şəxslərə verilmiş kreditlər:							
Lombard kreditləri	33,332,435	(73,289)	33,259,146	33,319,385	-	-	33,319,385
İstehlak kreditləri	4,761,620	(554,570)	4,207,050	-	3,198,633	149,666	3,348,299
Korporativ müştərilərə verilmiş kreditlər:							
Ticarət və xidmətlər	501,750	(7,855)	493,895	-	-	-	-
Cəmi	**38,595,805**	**(635,714)**	**37,960,091**	**33,319,385**	**3,198,633**	**149,666**	**36,667,684**

9 ƏMLAK, AVADANLIQLAR, QEYRİ-MADDİ AKTİVLƏR VƏ İSTİFADƏ HÜQUQU OLAN AKTİVLƏR

	Motorlu nəqliyyat vasitələri	Mebel və qurğular	Kompüter avadanlıqları	Digər aktivlər	Cəmi əmlak və avadanlıqlar	Qeyri-maddi aktivlər	İstifadə hüququ olan aktivlər	Cəmi
Ümumi balans dəyəri								
1 yanvar 2025-ci il tarixinə	**973,831**	**477,530**	**533,453**	**2,210**	**1,987,024**	**157,370**	**3,986,863**	**6,131,257**
Əlavələr	659,361	143,200	114,264	-	916,825	23,000	82,006	1,021,831
Dəyişikliklər	-	-	-	-	-	-	754,144	754,144
Silinmələr	(240,000)	-	-	-	(240,000)	-	(228,636)	(468,636)
31 dekabr 2025-ci il tarixinə	**1,393,192**	**620,730**	**647,717**	**2,210**	**2,663,849**	**180,370**	**4,594,377**	**7,438,596**
Yığılmış amortizasiya								
1 yanvar 2025-ci il tarixinə	**417,033**	**367,918**	**376,350**	**1,837**	**1,163,138**	**45,340**	**1,845,052**	**3,053,530**
Köhnəlmə/amortizasiya xərci	272,271	42,475	73,922	346	389,014	15,462	932,373	1,336,849
Silinmələr	(100,000)	-	-	-	(100,000)	-	(119,351)	(219,351)
31 dekabr 2025-ci il tarixinə	**589,304**	**410,393**	**450,272**	**2,183**	**1,452,152**	**60,802**	**2,658,074**	**4,171,028**
31 dekabr 2025-ci il tarixinə xalis balans dəyəri	**803,888**	**210,337**	**197,445**	**27**	**1,211,697**	**119,568**	**1,936,303**	**3,267,568**

	Motorlu nəqliyyat vasitələri	Mebel və qurğular	Kompüter avadanlıqları	Digər aktivlər	Cəmi əmlak və avadanlıqlar	Qeyri-maddi aktivlər	İstifadə hüququ olan aktivlər	Cəmi
Ümumi balans dəyəri								
1 yanvar 2024-cü il tarixinə	**973,603**	**458,341**	**413,362**	**2,210**	**1,847,516**	**92,700**	**2,736,660**	**4,676,876**
Əlavələr	449,056	19,189	120,091	-	588,336	64,670	458,936	1,111,942
Dəyişikliklər	-	-	-	-	-	-	876,260	876,260
Silinmələr	(448,828)	-	-	-	(448,828)	-	(84,993)	(533,821)
31 dekabr 2024-cü il tarixinə	**973,831**	**477,530**	**533,453**	**2,210**	**1,987,024**	**157,370**	**3,986,863**	**6,131,257**
Yığılmış amortizasiya								
1 yanvar 2024-cü il tarixinə	**558,240**	**318,650**	**290,677**	**1,493**	**1,169,060**	**35,151**	**1,074,765**	**2,278,976**
Köhnəlmə/amortizasiya xərci	179,089	49,268	85,673	344	314,374	10,189	838,103	1,162,666
Silinmələr	(320,296)	-	-	-	(320,296)	-	(67,817)	(388,112)
31 dekabr 2024-cü il tarixinə	**417,033**	**367,918**	**376,350**	**1,837**	**1,163,138**	**45,340**	**1,845,051**	**3,053,530**
31 dekabr 2024-cü il tarixinə xalis balans dəyəri	**556,798**	**109,612**	**157,103**	**373**	**823,886**	**112,030**	**2,141,812**	**3,077,728**

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə əmlak, avadanlıq, qeyri-maddi aktivlər və istifadə hüququ olan aktivlər kateqoriyasına daxil edilmiş aktivlər, müvafiq olaraq 275,230 AZN və 170,054 AZN məbləğlərində tam amortizasiya olunmuş və hələ də istifadədə olan aktivlərdir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə əmlak və avadanlıqlar kateqoriyasına daxil edilmiş aktivlər, müvafiq olaraq 803,888 AZN və 556,798 AZN məbləğlərində sığorta olunmuş aktivlərdir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə heç bir əmlak və avadanlıq öhdəliklər üçün girov qoyulmamışdır.

10 DİGƏR AKTİVLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Digər maliyyə aktivləri:		
Vasitəçilərdən alınacaq vəsaitlər	109,443	167,090
İnvestisiya mülkiyyətinin satışından alınacaq vəsaitlər	1,314,826	-
Cəmi digər maliyyə aktivləri	**1,424,269**	**167,090**
Digər qeyri-maliyyə aktivləri:		
Əmlak və avadanlıqların satın alınması üzrə avans ödənişləri	9,145	119,403
Xidmətlər üzrə avans ödənişləri	65,953	40,124
Cəmi digər qeyri-maliyyə aktivləri	**75,098**	**159,527**
Cəmi digər aktivlər	**1,499,367**	**326,617**

11 BORC ALINMIŞ VƏSAİTLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Rezident banklardan götürülmüş kreditlər	25,327,970	14,910,829
Azərbaycan Biznesinin İnkişafı Fonduna ödəniləcək vəsaitlər	696,528	202,983
Səhmdardan götürülmüş kreditlər	200,000	85,000
Cəmi borc alınmış vəsaitlər	**26,224,498**	**15,198,812**

31 dekabr 2025-ci il tarixinə illik 13-16% (31 dekabr 2024-cü il: illik 13-16%) faiz dərəcəsi ilə rezident banklardan alınmış kreditlər təminatsızdır və ödəmə müddətləri 2026-cı ilin may ayından 2028-ci ilin oktyabr ayına qədərdir.

Səhmdardan götürülmüş kreditlər təminatsızdır və 2026-cı ilin oktyabr ayınadək ödənilməlidir.

Təşkilat 29 aprel 2015-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində olan kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi proqramı olan Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə kredit sazişi imzalamışdır. Bu proqram çərçivəsində Təşkilata illik 1.0% faiz dərəcəsi ilə vəsait təqdim olunur və Təşkilat bu vəsaitləri illik 6.0%-7.0%-dən çox olmayan dərəcələrlə uyğun borcalanlara kredit olaraq verir. 31 dekabr 2025-ci il tarixinə Təşkilatın fonda ödəmə müddəti 2026-cı ilin aprel ayından 2029-cu ilin iyul ayına qədər olan, 696,528 AZN məbləğində (31 dekabr 2024-cü il: 202,983 AZN) təminatsız borcu olmuşdur.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə borc alınmış vəsaitlərə daxil edilmiş hesablanmış faiz xərcləri müvafiq olaraq 157,213 AZN və 90,673 AZN təşkil etmişdir.

Borc alınmış vəsaitlərin ilin əvvəlinə və ilin sonuna məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən əldə edilən müvafiq nağd və nağdsız dəyişiklikləri ilə üzləşdirilməsi aşağıda göstərilmişdir:

	2025-ci il	2024-cü il
1 yanvar	**15,198,812**	**10,401,793**
Pul vəsaitlərinin hərəkəti		
Daxilolmalar	29,025,000	12,095,800
Ödənişlər	(18,065,854)	(7,319,700)
Ödənilmiş faiz	(2,953,851)	(1,555,481)
Nağdsız dəyişikliklər		
Faiz xərci	3,020,391	1,576,400
31 dekabr	**26,224,498**	**15,198,812**

12 BURAXILMIŞ BORC QİYMƏTLİ KAĞIZLARI

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Yerli istiqrazlar	16,326,438	13,196,163
Cəmi buraxılmış borc qiymətli kağızları	**16,326,438**	**13,196,163**

Buraxılmış borc qiymətli kağızları Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən Qiymətli Kağızlar üzrə Dövlət Reyestrində qeydə alınmış istiqrazları təmsil edir. İstiqrazlar nominal qiymətlə buraxılmışdır, təminatsızdır, illik 15-18% faiz dərəcəsi daşıyır və ödəmə müddəti 2026-cı ilin noyabr ayından 2028-ci ilin noyabr ayına qədərdir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə buraxılmış borc qiymətli kağızlarına daxil edilmiş hesablanmış faiz xərcləri müvafiq olaraq 85,138 AZN və 208,163 AZN təşkil etmişdir.

Aşağıdakı cədvəldə buraxılmış borc qiymətli kağızlarının ilin əvvəlinə və sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyəti üzrə müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi göstərilir:

	2025-ci il	2024-cü il
1 yanvar	**13,196,163**	**11,503,416**
Pul vəsaitlərinin hərəkəti		
Daxilolmalar	13,251,000	8,801,000
Ödənişlər	(9,997,700)	(7,306,000)
Ödənilmiş faiz	(2,432,938)	(1,769,410)
Nağdsız dəyişikliklər		
Faiz xərci	2,309,913	1,967,157
31 dekabr	**16,326,438**	**13,196,163**

13 İCARƏ ÖHDƏLİKLƏRİ

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Cari icarə öhdəlikləri	1,025,867	923,862
Uzunmüddətli icarə öhdəlikləri	1,188,147	1,416,178
Cəmi icarə öhdəlikləri	**2,214,014**	**2,340,040**

	1 il ərzində	Bir ildən beş ilədək	Cəmi
31 dekabr 2025-ci il			
Minimal icarə ödənişləri	1,108,927	1,672,616	2,781,543
Maliyyə xərcləri	(83,060)	(484,469)	(567,529)
Xalis cari dəyər	**1,025,867**	**1,188,147**	**2,214,014**

	1 il ərzində	Bir ildən beş ilədək	Cəmi
31 dekabr 2024-cü il			
Minimal icarə ödənişləri	995,456	2,021,442	3,016,898
Maliyyə xərcləri	(71,594)	(605,264)	(676,858)
Xalis cari dəyər	**923,862**	**1,416,178**	**2,340,040**

İcarə öhdəliklərinin ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən müvafiq nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıdakı kimi olmuşdur:

	2025-ci il	2024-cü il
1 yanvar	**2,340,040**	**1,804,632**
Pul vəsaitlərinin hərəkəti		
Əsas məbləğin ödənilməsi	(833,358)	(736,516)
Ödənilmiş faiz	(380,448)	(329,379)
Nağdsız dəyişikliklər		
Yeni icarələr	82,006	458,936
Dəyişikliklər	754,144	876,260
Tanınmanın dayandırılması	(128,818)	(63,272)
Faiz xərci	380,448	329,379
31 dekabr	**2,214,014**	**2,340,040**

14 DİGƏR ÖHDƏLİKLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Digər maliyyə öhdəlikləri:		
Səhmdara ödəniləcək dividendlər	150,244	-
Hesablanmış xərclər	78,807	1,022,510
İnvestisiya mülkiyyətinin satın alınması üzrə ödəniləcək vəsaitlər	-	528,580
Digər	8,079	7,821
Cəmi digər maliyyə öhdəlikləri	**237,130**	**1,558,911**
Digər qeyri-maliyyə öhdəlikləri		
İşçilərə ödəniləcək vəsaitlər	717,549	479,419
DSMF-ə ödəniləcək vəsaitlər	127,057	85,862
Cəmi digər qeyri-maliyyə öhdəlikləri	**844,606**	**565,281**
Cəmi digər öhdəliklər	**1,081,736**	**2,124,192**

15 NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2025-ci il tarixinə Təşkilatın təsdiqlənmiş, buraxılmış və ödənilməmiş səhmdar kapitalı 10,000 adi səhmdən ibarətdir (31 dekabr 2024-cü il: 8,000). Bütün səhmlərin hər birinin nominal dəyəri 1,000 AZN təşkil edir.

Adi səhmlərin sahibləri vaxtaşırı elan edilmiş dividendləri almaq hüququna malikdirlər və Təşkilatın illik və ümumi yığıncaqlarında hər bir səhm üzrə bir səs hüququna malikdirlər.

31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində 5,250,244 AZN məbləğində dividendlər elan edilmişdir (31 dekabr 2024-cü il: 3,301,286 AZN).

16 XALİS FAİZ GƏLİRİ

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri		
Müştərilərə verilmiş kreditlər üzrə faiz	24,103,348	17,827,749
Cəmi effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri	**24,103,348**	**17,827,749**
Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz xərci		
Borc alınmış vəsaitlər üzrə faiz	(3,020,391)	(1,576,400)
Buraxılmış borc qiymətli kağızları üzrə faiz	(2,309,913)	(1,967,157)
İcarə öhdəlikləri üzrə faiz	(380,448)	(329,379)
Cəmi effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz xərci	**(5,710,752)**	**(3,872,936)**
Cəmi xalis faiz gəliri	**18,392,596**	**13,954,813**

17 HAQQ VƏ KOMİSSİYA GƏLİRİ

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Müştərilərə göstərilmiş xidmətlər	393,283	323,803
Cəmi haqq və komissiya gəliri	**393,283**	**323,803**

18 HAQQ VƏ KOMİSSİYA XƏRCİ

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Banklar və digər maliyyə təşkilatları tərəfindən göstərilmiş xidmətlər	(89,190)	(96,885)
Cəmi haqq və komissiya xərci	**(89,190)**	**(96,885)**

19 İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
İşçilərə kompensasiya ödənişi	(5,381,222)	(3,387,026)
Dövlət Sosial Müdafiə Fonduna ödənişlər	(1,003,999)	(647,023)
Digər	(177,130)	(201,069)
Cəmi işçi heyəti ilə bağlı xərclər	**(6,562,351)**	**(4,235,118)**

20 ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Köhnəlmə və amortizasiya xərcləri	(1,336,849)	(1,162,666)
Ofis ləvazimatları	(1,012,696)	(750,913)
Hüquqi və peşəkar haqlar	(493,193)	(1,124,857)
Reklam xərcləri	(437,280)	(298,297)
Rabitə xərcləri	(172,798)	(131,653)
Təmir və istismar xərcləri	(111,252)	(29,820)
Təhlükəsizlik xərcləri	(106,251)	(85,514)
Ezamiyyə və əlaqədar xərclər	(101,231)	(134,736)
Proqram təminatı xərcləri	(70,601)	(65,260)
Yanacaq xərcləri	(68,418)	(74,821)
Sığorta xərcləri	(46,795)	(30,327)
Kommunal xərclər	(27,079)	(21,352)
Digər	(81,838)	(46,489)
Cəmi ümumi və inzibati xərclər	**(4,066,281)**	**(3,956,705)**

21 VERGİQOYMA

Azərbaycan kommersiya və vergi qanunvericiliyi xüsusilə müxtəlif təfsir və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərlik tərəfindən vergi qanunvericiliyinin təfsiri vergi orqanlarından fərqlənə bildiyi üçün, əməliyyatlara vergi orqanları tərəfindən yoxlama tətbiq oluna bilər və nəticədə Təşkilat əlavə vergi, cərimə və faizlər ödəmək məcburiyyətində qala bilər. Rəhbərlik hesab edir ki, Təşkilat vergi qanunvericiliyinə əsaslı şəkildə əməl edir.

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Cari mənfəət vergisi xərci	(1,729,111)	(1,345,890)
Təxirə salınmış mənfəət vergisi gəliri	248,904	139,399
Cəmi mənfəət vergisi xərci	**(1,480,207)**	**(1,206,491)**

Mənfəət vergisi xərci ilə uçot mənfəəti arasındakı əlaqə

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Mənfəət vergisindən əvvəl mənfəət	**7,026,643**	**6,027,071**
Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsi 20% ilə hesablanan nəzəri vergi tutulmaları	(1,405,329)	(1,205,413)
Daimi fərqlər üzrə vergi təsiri	(52,489)	(1,078)
Əvvəlki dövrün mənfəət vergisi qiymətləndirməsinin yenidən nəzərdən keçirilməsi	(22,389)	-
Mənfəət vergisi xərci	**(1,480,207)**	**(1,206,491)**

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərində başa çatmış illər üzrə müvəqqəti fərqlərin hərəkəti aşağıdakı kimi təqdim olunur:

	1 yanvar 2025-ci il	Mənfəət və ya zərərdə hesaba alınmış	31 dekabr 2025-ci il
İstifadə hüququ olan aktivlər	400,792	186,474	587,266
Müştərilərə verilmiş kreditlər	181,960	152,244	334,204
Digər öhdəliklər	100,216	83,229	183,445
Əmlak və avadanlıqlar	40,854	1,083	41,937
Qeyri-maddi aktivlər	1,492	651	2,143
İcarə öhdəlikləri	(362,449)	(170,578)	(533,027)
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	-	(4,199)	(4,199)
Xalis təxirə salınmış mənfəət vergisi aktivi	**362,865**	**248,904**	**611,769**

	1 yanvar 2024-cü il	Mənfəət və ya zərərdə hesaba alınmış	31 dekabr 2024-cü il
İstifadə hüququ olan aktivlər	233,171	167,621	400,792
Müştərilərə verilmiş kreditlər	107,211	74,749	181,960
Digər öhdəliklər	74,886	25,330	100,216
Əmlak və avadanlıqlar	35,262	5,592	40,854
Qeyri-maddi aktivlər	1,129	363	1,492
İcarə öhdəlikləri	(205,927)	(156,522)	(362,449)
Buraxılmış borc qiymətli kağızları	(22,266)	22,266	-
Xalis təxirə salınmış mənfəət vergisi aktivi	**223,466**	**139,399**	**362,865**

22 ƏLAQƏLİ TƏRƏFLƏR

Təşkilat adi fəaliyyəti şəraitində MHBS Mühasibat Uçotu Standartlarında əks olunmuş əlaqəli tərəf anlayışına daxil olan digər müəssisələrlə işgüzar fəaliyyət aparır. Bu əməliyyatlar Təşkilat normal fəaliyyətini davam etdirərkən aparılır və iki tərəfin razılaşdığı mübadilə məbləğlərilə ölçülür. Bu maliyyə hesabatlarının məqsədləri üçün müəssisələr, Təşkilat birbaşa və ya dolayısı ilə bu qurumların maliyyə və əməliyyatlar üzrə qərarlarına ciddi təsir göstərmək imkanına malik olduğu halda və ya əksinə Təşkilat və ya digər qurum əsas idarəetmə heyəti və digər əlaqəli tərəflərin ümumi nəzarətinə və ya ciddi təsirinə məruz qaldığı halda əlaqəli tərəflər hesab olunurlar.

İl ərzində əlaqəli tərəflərlə uçota alınmış əməliyyatların təfərrüatları aşağıda göstərilir.

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Maliyyə vəziyyəti haqqında hesabat:		
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	2,080,000	-
Borc alınmış vəsaitlər	200,000	85,000
Buraxılmış borc qiymətli kağızları	-	11,006
Digər öhdəliklər	61,489	62,286
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat:		
Faiz gəliri	274,735	-
Faiz xərci	-	(1,925)
İşçi heyəti ilə bağlı xərclər	(297,816)	(297,267)

23 TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

Normal fəaliyyəti həyata keçirərkən Təşkilat müştərilərinin ehtiyaclarını ödəmək məqsədilə balansdankənar risklərlə maliyyə alətlərində tərəf qismində çıxış edir. Müxtəlif dərəcələrdə kredit risklərinə məruz qalan həmin alətlər maliyyə vəziyyəti haqqında hesabatda əks olunmur. Təşkilat balansdankənar şərti öhdəliklərin və təəhhüdlərin qəbul edilməsində balansa daxil olan əməliyyatlarla eyni kredit nəzarəti siyasəti və idarəetmə siyasətlərini tətbiq edir.

31 dekabr 2025-ci il tarixinə Təşkilatın əsas kapital öhdəliyi olmamışdır (31 dekabr 2024-cü il: sıfır).

Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Təşkilata qarşı iddialar irəli sürülür. Təşkilat rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının vergi qanunvericiliyinin müddəaları bəzən ziddiyyət təşkil edir və nəticədə vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Vergi ödəyicilərinin vergi orqanları tərəfindən vergi qanunvericiliyinin təfsiri ilə bağlı şübhələri olduqda, vergi orqanlarına qarşı öz mövqelərini müdafiə etmək üçün məhkəməyə müraciət etmək hüququ vardır. Qeyd etmək lazımdır ki, vergi orqanları məhkəmə orqanları tərəfindən təqdim edilmiş "haqsız vergi qazancı", "əməliyyatın əsas kommersiya məqsədi" konsepsiyalarından və "əməliyyatın kommersiya mahiyyəti/(məqsədi)" kriteriyasından istifadə edə bilərlər.

Belə qeyri-müəyyənliklər, əsasən maliyyə alətlərinin/derivativlərin və transfer qiymətini təyin etmək məqsədilə əməliyyatın bazar qiymətinin istifadə edilməsi zamanı vergi qanunvericiliyinə uyğun olaraq edilmiş şərhə aid edilə bilər. Bu, kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatlar və vergi orqanları tərəfindən mənfəət vergisi bazasının bilərəkdən azaldılması kimi qiymətləndirilmə səbəbindən müvəqqəti vergi tutulan fərqlərə səbəb ola bilər. Təşkilatın rəhbərliyi əmindir ki, bütün lazımi vergilər hesablanmışdır və ona görə də əlavə vergi ehtiyatının yaradılmasına ehtiyac yoxdur.

Ümumiyyətlə, vergi ödəyicilərinin audit tarixindən əvvəlki üç ilə aid maliyyə təsərrüfat fəaliyyəti vergi orqanları tərəfindən yoxlanıla bilər. Bundan əlavə, vergi yoxlamaları başa çatsa belə aparılmış yoxlamaların daha yüksək səlahiyyətli vergi orqanları tərəfindən yoxlanılması ehtimalı da istisna edilmir.

24 KAPİTAL RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Kapitalın idarə olunmasının əsas məqsədləri Təşkilatın əsas iş strategiyası və tənzimləyicinin minimum tələbləri ilə müəyyən edilmiş kapital tələblərinə cavab vermək üçün kifayət qədər kapitalın olmasını təmin etməkdir. Kapitalın idarə edilməsi prosesi Müşahidə Şurası tərəfindən idarə olunur. Müşahidə Şurası Təşkilatın kapital mövqeyini daxili və tənzimləyici tələblərə uyğun idarə etməkdən məsuldur. Müşahidə Şurası, likvidlik, kapital, risk və gəlirlilik mülahizələri baxımından Təşkilatın aktivlərinin, öhdəliklərinin və maliyyələşdirmə mənbələrinin həcmini və qarışığını da nəzərdən keçirir.

Prudensial qaydalara uyğunluq

ARMB bank olmayan kredit təşkilatlarından qanunla müəyyən edilmiş maliyyə hesabatları əsasında hesablanmış müəyyən prudensial əmsalları saxlamağı tələb edir. 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Təşkilat bu əmsallara riayət etmişdir.

ARMB bank olmayan kredit təşkilatlarından 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə 1,000,000 AZN (31 dekabr 2024-cü il tarixinə 1,000,000 AZN) dəyərində minimum kapital adekvatlığını saxlamağı tələb edir. Təşkilat tərəfindən 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə minimum kapital tələbləri yerinə yetirilmişdir.

Təşkilatın kapitalın idarə edilməsi aşağıdakıları nəzərə alır:

- tənzimləyicilər tərəfindən müəyyən edilmiş və analoqları ilə müqayisə olunan kapital tələblərinə riayət etmək;
- kapital xərclərinin tədarükünü aktiv şəkildə idarə etmək və kapital sürətini artırmaq;
- kapitalın vaxtında yenidən bölüşdürülməsinə imkan vermək üçün kapitalın yerləşdirilməsində strateji və taktiki çevikliyin artırılması;
- Təşkilatın resurslarının optimal yerləşdirilməsinə imkan vermək üçün Təşkilatın aktivlərinin likvidliyini artırmaq;
- Təşkilatı gözlənilməz hadisələrdən qorumaq və güclü reytinqləri qoruyub saxlamaq;
- Təşkilatın səhmdarlara lazımi gəlir gətirməyə davam etməsi üçün Təşkilatın fasiləsiz fəaliyyətini davam etdirmə qabiliyyətini qorumaq;
- Təşkilatın genişlənməsini təmin etmək üçün kifayət qədər kapitalın (kvant daxil olmaqla) məqbul bir xərclə olması; və
- müvafiq kapital elementlərinin qarışığı ilə kapitalın ümumi aşağı qiymətinə nail olmaq.

25 ƏDALƏTLİ DƏYƏRİN ÖLÇÜLMƏSİ

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Buna görə də, tarixi dəyər metoduna əsasən balans dəyəri ilə ədalətli dəyər təxminləri arasında fərqlər yarana bilər. Ədalətli dəyərin ölçülməsi müəssisənin ləğv etmək, əməliyyatlarını əhəmiyyətli dərəcədə azaltmaq və ya əlverişsiz şərtlərlə əməliyyat həyata keçirmək niyyəti və ya ehtiyacı olmadan fəaliyyətinin davamlı olması ehtimalına əsaslanır. Rəhbərliyin təxminlərinə əsasən Təşkilatın maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə qeydə alınmayan maliyyə alətlərinin ədalətli dəyəri aşağıda göstərilmişdir:

	31 dekabr 2025-ci il		31 dekabr 2024-cü il	
	Balans dəyəri	Ədalətli dəyər	Balans dəyəri	Ədalətli dəyər
Maliyyə aktivləri:				
Pul vəsaitləri və onların ekvivalentləri	1,916,146	1,916,146	2,020,103	2,020,103
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	2,099,600	2,099,600	-	-
Müştərilərə verilmiş kreditlər	51,256,775	51,256,775	37,960,091	37,960,091
Digər maliyyə aktivləri	1,424,269	1,424,269	167,090	167,090
Cəmi maliyyə aktivləri	**56,696,790**	**56,696,790**	**40,147,284**	**40,147,284**
Maliyyə öhdəlikləri:				
Borc alınmış vəsaitlər	26,224,498	26,224,498	15,198,812	15,198,812
Buraxılmış borc qiymətli kağızları	16,326,438	16,218,872	13,196,163	13,305,728
Digər maliyyə öhdəlikləri	237,130	237,130	1,558,911	1,558,911
Cəmi maliyyə öhdəlikləri	**42,788,066**	**42,680,500**	**29,953,886**	**30,063,451**

Maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə ölçülən aktiv və öhdəliklər ədalətli dəyər iyerarxiyasının üç səviyyəsi üzrə qruplaşdırılır. Bu qruplaşma ədalətli dəyərin ölçülməsində istifadə olunan əhəmiyyətli ilkin məlumatların ən aşağı səviyyəsinə əsasən müəyyən edilir:

- 1-ci Səviyyə: oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda təyin olunan (düzəliş edilməyən) qiymətlər;

- 2-ci Səviyyə: təyin edilmiş qiymət istisna olmaqla, 1-ci Səviyyədə qeyd edilmiş və birbaşa (məs. qiymətlər kimi) və ya dolayı (məs. qiymətlərdən qaynaqlanan) yolla müşahidə edilə bilən ilkin məlumatlar;
- 3-cü Səviyyə: müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəliklər üzrə ilkin məlumatlar (müşahidə oluna bilməyən ilkin məlumatlar).

Aşağıdakı cədvəl maliyyə aktivləri və öhdəliklərinin iyerarxiyası daxilində səviyyələri göstərir:

	1-ci Səviyyə	2-ci Səviyyə	3-cü Səviyyə	Cəmi
31 dekabr 2025-ci il				
Maliyyə aktivləri:				
Pul vəsaitləri və onların ekvivalentləri	1,916,146	-	-	1,916,146
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	-	-	2,099,600	2,099,600
Müştərilərə verilmiş kreditlər	-	-	51,256,775	51,256,775
Digər maliyyə aktivləri	-	-	1,424,269	1,424,269
Maliyyə öhdəlikləri:				
Borc alınmış vəsaitlər	-	-	26,224,498	26,224,498
Buraxılmış borc qiymətli kağızları	-	16,326,438	-	16,326,438
Digər maliyyə öhdəlikləri	-	-	237,130	237,130

	1-ci Səviyyə	2-ci Səviyyə	3-cü Səviyyə	Cəmi
31 dekabr 2024-cü il				
Maliyyə aktivləri:				
Pul vəsaitləri və onların ekvivalentləri	2,020,103	-	-	2,020,103
Müştərilərə verilmiş kreditlər	-	-	37,960,091	37,960,091
Digər maliyyə aktivləri	-	-	167,090	167,090
Maliyyə öhdəlikləri:				
Borc alınmış vəsaitlər	-	-	15,198,812	15,198,812
Buraxılmış borc qiymətli kağızları	-	13,196,163	-	13,196,163
Digər maliyyə öhdəlikləri	-	-	1,558,911	1,558,911

26 MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Təşkilatın fəaliyyəti məqsədyönlü şəkildə riskləri nəzərə almaq və onları peşəkar şəkildə idarə etməkdən ibarətdir. Təşkilatın risklərin idarə edilməsinin əsas funksiyaları Təşkilat üçün bütün əsas riskləri müəyyən etmək, bu riskləri ölçmək, risk mövqelərini idarə etmək və kapitalın bölüşdürülməsini müəyyən etməkdir. Təşkilat bazarlarda, məhsullarda və üstün bazar təcrübəsində dəyişiklikləri əks etdirmək üçün mütəmadi olaraq risklərin idarə edilməsi siyasətini və sistemini nəzərdən keçirir. Təşkilatın məqsədi risk və gəlir arasında müvafiq tarazlığa nail olmaq və Təşkilatın maliyyə fəaliyyətinə potensial mənfi təsirləri minimuma endirməkdir. Təşkilat riski daxili və ya xarici amillərin səbəb ola biləcəyi itirilmiş mənfəət və ya zərər ehtimalı kimi müəyyən edir.

Təşkilatın risklərin idarə edilməsi onun baş ofisində, Müşahidə Şurası ilə sıx əməkdaşlıqda əlaqələndirilir. Müşahidə Şurası ümumi risklərin idarə edilməsi üçün yazılı prinsiplər, habelə valyuta riski, faiz dərəcəsi riski, kredit riski və qeyri-derivativ maliyyə alətlərinin istifadəsi kimi xüsusi sahələri əhatə edən yazılı siyasət təqdim edir.

Əməliyyat riski

Təşkilatın əməliyyat riski elektron və telekommunikasiya, gündəlik və ya digər sistemlərdə nasazlıqlar kimi Təşkilatın gündəlik fəaliyyətində baş verən xətalar nəticəsində yarana biləcək mümkün zərərlərə aiddir - əlavə amillər peşəkar bacarıqların qeyri-kafi səviyyəsi və ya insan faktorudur. Təşkilatın əməliyyat risklərini minimum səviyyədə saxlamaq üçün ümumi risk təsnifatından istifadə etməklə əməliyyat risklərini idarə etmək üçün müxtəlif alətlərdən istifadə olunur.

Təşkilatın əməliyyat riskinə yanaşması riski aradan qaldırmaq üçün deyil, daha çox onu rəhbərlik tərəfindən müəyyən edilmiş məqbul səviyyələr daxilində saxlamaq və əlavə nəzarətlər, nəzarət vasitələrinə düzəlişlər və ya digər risklərə cavab vermə ilə bağlı qərarlar qəbul etmək üçün onların kifayət qədər məlumata malik olmasını təmin etmək məqsədi daşıyır.

Bazar riski

Bazar riski bazar qiymətlərinin və dərəcələrinin dəyişməsi riskidir və bu, gəlirliyə və/və ya kapitala mənfi təsir göstərə bilər. Təşkilat gündəlik əməliyyatları ilə bağlı faiz dərəcələri və valyuta üzrə açıq mövqelərdən irəli gələn bir sıra bazar risklərinə məruz qalır ki, bunların da hamısı ümumi və spesifik bazar hərəkətlərinə məruz qalır. Bazar riski məqsədi ilə rəhbərlik özünün səhm mövqeyi riski, faiz dərəcəsi riski və xarici valyuta riski kimi əsas bazar risk faktorlarını müəyyən edir. Əsas bazar riski xarici valyuta riski və faiz dərəcəsi riskidir. Təşkilat kapital bazarında əməliyyatlara malik olmadığına görə kapital mövqeyi riskinə əhəmiyyətli dərəcədə məruz qalmır.

Təşkilat öz siyasətinə uyğun olaraq bazar qiymətlərində və dərəcələrində mənfi dəyişikliklərin qarşısını almaq və açıq mövqelərinin risk/gəlir profilini optimallaşdırmaq üçün bazar risklərini müəyyən etməyə, ölçməyə, izləməyə və nəzarət etməyə çalışır. Müşahidə Şurası ilk növbədə bazar riski siyasətinin və riskin ölçülməsi/monitorinq metodologiyasının işlənib hazırlanmasına və həyata keçirilməsinə, habelə müəyyən edilmiş limitlər üzrə bazar riskinin nəzərdən keçirilməsinə və hesabat verilməsinə nəzarət edir.

Xarici valyuta riski

Xarici valyuta riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətinin xarici valyutaların məzənnələrindəki dəyişikliklər nəticəsində tərəddüd etməsi riskidir. Xarici valyuta riski valyuta məzənnələrindəki dəyişikliklər nəticəsində mənfəətin və/və ya kapitalın dəyişməsi riskidir. Təşkilat xarici valyutada olan aktiv və öhdəliklərini uyğunlaşdırmaqla valyuta risklərini idarə edir. Risk konsentrasiyasını məhdudlaşdırmaq üçün xalis açıq mövqe və qarşı tərəf limitləri müəyyən edilmişdir.

Təşkilatı valyuta riskinə məruz qoyan xarici valyutada olan maliyyə aktivləri və öhdəlikləri aşağıda açıqlanmışdır. Göstərilən məbləğlər bağlanış məzənnəsi ilə AZN-ə çevrilmiş əsas rəhbər işçilərə təqdim edilən məbləğlərdir:

31 dekabr 2025-ci il tarixinə maliyyə aktivləri və öhdəliklərinin xarici valyuta məzənnəsi üzrə strukturu aşağıdakı cədvəldə təqdim olunmuşdur:

	AZN	ABŞ dolları	Cəmi
Pul vəsaitləri və onların ekvivalentləri	1,892,650	23,496	1,916,146
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	2,099,600	-	2,099,600
Müştərilərə verilmiş kreditlər	51,256,775	-	51,256,775
Digər maliyyə aktivləri	1,424,269		1,424,269
Cəmi maliyyə aktivləri	**56,673,294**	**23,496**	**56,696,790**
Borc alınmış vəsaitlər	26,224,498	-	26,224,498
Buraxılmış borc qiymətli kağızları	16,326,438	-	16,326,438
İcarə öhdəlikləri	2,214,014	-	2,214,014
Digər maliyyə öhdəlikləri	237,130	-	237,130
Cəmi maliyyə öhdəlikləri	**45,002,080**	**-**	**45,002,080**
Açıq valyuta mövqeyi	**11,671,214**	**23,496**	**11,694,710**

31 dekabr 2024-cü il tarixinə maliyyə aktivləri və öhdəliklərinin xarici valyuta məzənnəsi üzrə strukturu aşağıdakı cədvəldə təqdim olunmuşdur:

	AZN	ABŞ dolları	Cəmi
Pul vəsaitləri və onların ekvivalentləri	1,935,103	85,000	2,020,103
Müştərilərə verilmiş kreditlər	37,960,091		37,960,091
Digər maliyyə aktivləri	167,090		167,090
Cəmi maliyyə aktivləri	**40,062,284**	**85,000**	**40,147,284**
Borc alınmış vəsaitlər	15,198,812	-	15,198,812
Buraxılmış borc qiymətli kağızları	13,196,163	-	13,196,163
İcarə öhdəlikləri	2,340,040	-	2,340,040
Digər maliyyə öhdəlikləri	1,558,911	-	1,558,911
Cəmi maliyyə öhdəlikləri	**32,293,926**	**-**	**32,293,926**
Açıq valyuta mövqeyi	**7,768,358**	**85,000**	**7,853,358**

Aşağıdakı cədvəldə vergidən əvvəl mənfəətin/(zərərin), Təşkilatın maliyyə aktivləri və maliyyə öhdəliklərinə münasibətdə kapitalın və ABŞ dolları/AZN məzənnəsinin "digər şərtlər sabit qalarsa" həssaslığı göstərilir. 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə ABŞ dolları/AZN məzənnəsinin ±10% dəyişməsini nəzərdə tutur (31 dekabr 2024-cü il: ±10%). Həssaslıq təhlili hər hesabat tarixində Təşkilatın xarici valyutada olan maliyyə alətlərinə əsaslanır.

Əgər AZN ABŞ dollarına nisbətdə 10% (31 dekabr 2024-cü il: 10%) zəifləmiş və ya möhkəmlənmiş olsaydı, bu, müvafiq olaraq aşağıdakı təsirləri göstərəcəkdi:

	Mənfəət vergisindən əvvəl mənfəət		Kapital	
	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
AZN-in 10% zəifləməsi	(2,350)	(8,500)	(1,880)	(6,800)
AZN-in 10% möhkəmlənməsi	2,350	8,500	1,880	6,800

Xarici valyuta məzənnələri ilə bağlı risklər xaricdəki əməliyyatların həcmindən asılı olaraq il ərzində dəyişir. Buna baxmayaraq, yuxarıda göstərilən təhlil Təşkilatın xarici valyuta riskinə məruz qalmasını əks etdirir.

Faiz dərəcəsi riski

Pul vəsaitlərinin hərəkəti üzrə faiz dərəcəsi riski, bazar faiz dərəcələrindəki dəyişikliklər nəticəsində maliyyə alətinin gələcək pul vəsaitlərinin hərəkətinin dəyişməsi riskidir. Ədalətli dəyər faiz dərəcəsi riski, bazar faiz dərəcələrindəki dəyişikliklər nəticəsində maliyyə alətinin dəyərinin dəyişməsi riskidir.

Təşkilat, bazar faiz dərəcələrinin mövcud səviyyələrindəki dəyişikliklərin həm ədalətli dəyər, həm də pul vəsaitlərinin hərəkəti risklərinə təsirinə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin gözlənilməz hərəkətlər baş verdikdə zərərləri azalda bilər. Müşahidə Şurası faiz dərəcələrinin yenidən qiymətləndirilməsi ilə həyata keçirilə biləcək risk dəyərinin uyğunsuzluğu səviyyəsinə dair limitlər müəyyən edir və bu limitlərə Risklərin idarə edilməsi üzrə mütəxəssis tərəfindən gündəlik nəzarət edilir.

Aşağıdakı cədvəllər faiz dərəcəsinin yenidən qiymətləndirilməsinin uyğunsuzluq səviyyəsini göstərir:

	1 ay ərzində	1-6 ay ərzində	6-12 ay ərzində	1-5 il ərzində	Faizsiz	31 dekabr 2025-ci il Cəmi
MALİYYƏ AKTİVLƏRİ						
Pul vəsaitləri və onların ekvivalentləri	-	-	-	-	1,916,146	1,916,146
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	83,190	317,948	381,538	1,316,924	-	2,099,600
Müştərilərə verilmiş kreditlər	652,727	4,536,842	8,205,326	37,861,880	-	51,256,775
Digər maliyyə aktivləri	-	-	-	-	1,424,269	1,424,269
Cəmi maliyyə aktivləri	**735,917**	**4,854,790**	**8,586,864**	**39,178,804**	**3,340,415**	**56,696,790**
MALİYYƏ ÖHDƏLİKLƏRİ						
Borc alınmış vəsaitlər	157,213	453,365	3,756,593	21,657,327	200,000	26,224,498
Buraxılmış borc qiymətli kağızları	85,138	-	2,000,000	14,241,300	-	16,326,438
İcarə öhdəlikləri	102,448	475,463	447,956	1,188,147	-	2,214,014
Digər maliyyə öhdəlikləri	-	-	-	-	237,130	237,130
Cəmi maliyyə öhdəlikləri	**344,799**	**928,828**	**6,204,549**	**37,086,774**	**437,130**	**45,002,080**
Faiz dərəcəsi boşluğu	391,118	3,925,962	2,382,315	2,092,030	2,903,285	11,694,710
Məcmu faiz dərəcəsi boşluğu	**391,118**	**4,317,080**	**6,699,395**	**8,791,425**	**11,694,710**	

	1 ay ərzində	1-6 ay ərzində	6-12 ay ərzində	1-5 il ərzində	Faizsiz	31 dekabr 2024-cü il Cəmi
MALİYYƏ AKTİVLƏRİ						
Pul vəsaitləri və onların ekvivalentləri	-	-	-	-	2,020,103	2,020,103
Müştərilərə verilmiş kreditlər	5,618,475	5,649,462	16,040,598	10,651,556	-	37,960,091
Digər maliyyə aktivləri	-	-	-	-	167,090	167,090
Cəmi maliyyə aktivləri	**5,618,475**	**5,649,462**	**16,040,598**	**10,651,556**	**2,187,193**	**40,147,284**
MALİYYƏ ÖHDƏLİKLƏRİ						
Borc alınmış vəsaitlər	90,673	1,928,157	3,060,863	10,034,119	85,000	15,198,812
Buraxılmış borc qiymətli kağızları	208,163	2,000,000	4,988,000	6,000,000	-	13,196,163
İcarə öhdəlikləri	98,092	430,773	394,997	1,416,178	-	2,340,040
Digər maliyyə öhdəlikləri	-	-	-	-	1,558,911	1,558,911
Cəmi maliyyə öhdəlikləri	**396,928**	**4,358,930**	**8,443,861**	**17,450,296**	**1,643,911**	**32,293,926**
Faiz dərəcəsi boşluğu	5,221,547	1,290,532	7,596,737	(6,798,740)	543,282	7,853,358
Məcmu faiz dərəcəsi boşluğu	**5,221,547**	**6,512,079**	**14,108,816**	**7,310,076**	**7,853,358**	

Aşağıdakı cədvəl vergidən və kapitaldan əvvəl mənfəətin/(zərərin) ±1% (31 dekabr 2024-cü il: ±1%) faiz dərəcələrində ağlabatan mümkün dəyişikliyə qarşı həssaslığını göstərir. Bu dəyişikliklər cari bazar şəraitinin müşahidəsinə əsasən hesab edilir. Hesablamalar hər bir dövr üçün orta bazar faiz dərəcəsindəki dəyişikliyə və faiz dərəcələrindəki dəyişikliklərə həssas olan hər bir hesabat tarixində saxlanılan faiz gətirən maliyyə alətlərinə əsaslanır. Bütün digər dəyişənlər sabit saxlanılır.

	Mənfəət vergisindən əvvəl mənfəət		Kapital	
	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
1% artma	87,914	75,967	70,331	60,773
1% azalma	(87,914)	(75,967)	(70,331)	(60,773)

Likvidlik riski

Likvidlik riski, təşkilatın müqavilə öhdəlikləri, borcların ödəmə müddətləri və ya digər pul vəsaitlərinin xaric olması səbəbindən nağd pul tələbləri nəticəsində öz öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Belə xaric olmalar müştəri kreditləri və investisiyalar üçün mövcud pul vəsaitlərinin tükənməsi ilə nəticələnəcəkdir. Ekstremal şəraitdə likvidliyin çatışmazlığı maliyyə vəziyyəti haqqında hesabatda və aktivlərin satışında azalma və ya potensial olaraq kredit öhdəliklərinin yerinə yetirilməməsi ilə nəticələnə bilər. Təşkilatın bunu edə bilməyəcəyi riski bütün bank əməliyyatlarına xasdır və kredit hadisələri, sistem sarsıntıları və təbii fəlakətlər də daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, bir sıra təşkilata xas və bazar miqyasında baş verən hadisələrin təsirinə məruz qala bilər. Müşahidə Şurası maliyyə vəziyyəti haqqında hesabatın likvidlik əmsallarına və likvidliklə bağlı ehtiyat planlarına riayət olunmasına nəzarət edir.

Aşağıdakı cədvəllərdə güzəştsiz müqavilə üzrə ödəmə müddətinin təhlili göstərilmişdir:

	1 ay ərzində	1-6 ay ərzində	6-12 ay ərzində	1-5 il ərzində	Cəmi ümumi pul vəsaitlərinin yönəlməsi	Cəmi balans məbləği
31 dekabr 2025-ci il						
Borc alınmış vəsaitlər	481,987	2,071,805	5,599,221	23,710,661	31,863,674	26,224,498
Buraxılmış borc qiymətli kağızları	315,446	1,151,541	3,350,600	16,690,749	21,508,336	16,326,438
İcarə öhdəlikləri	103,794	500,078	505,055	1,672,616	2,781,543	2,214,014
Digər maliyyə öhdəlikləri	237,130	-	-	-	237,130	237,130
Cəmi maliyyə öhdəlikləri	**1,138,357**	**3,723,424**	**9,454,876**	**42,074,026**	**56,390,683**	**45,002,080**

	1 ay ərzində	1-6 ay ərzində	6-12 ay ərzində	1-5 il ərzində	Cəmi ümumi pul vəsaitlərinin yönəlməsi	Cəmi balans məbləği
31 dekabr 2024-cü il						
Borc alınmış vəsaitlər	269,476	2,006,994	5,197,956	10,813,364	18,287,790	15,198,812
Buraxılmış borc qiymətli kağızları	173,841	2,864,821	5,591,810	8,410,845	17,041,317	13,196,163
İcarə öhdəlikləri	99,285	452,243	443,928	2,021,442	3,016,898	2,340,040
Digər maliyyə öhdəlikləri	1,558,911	-	-	-	1,558,911	1,558,911
Cəmi maliyyə öhdəlikləri	**2,101,513**	**5,324,058**	**11,233,694**	**21,245,651**	**39,904,916**	**32,293,926**

Aşağıdakı cədvəllərdə güzəştli müqavilə üzrə ödəmə müddətinin təhlili göstərilmişdir:

	1 ay ərzində	1-6 ay ərzində	6-12 ay ərzində	1-5 il ərzində	31 dekabr 2025-ci il Cəmi
MALİYYƏ AKTİVLƏRİ					
Pul vəsaitləri və onların ekvivalentləri	1,916,146	-	-	-	1,916,146
Maliyyə təşkilatlarından alınacaq vəsaitlər	83,190	317,948	381,538	1,316,924	2,099,600
Müştərilərə verilmiş kreditlər	652,727	4,536,842	8,205,326	37,861,880	51,256,775
Digər maliyyə aktivləri	1,424,269	-	-	-	1,424,269
Cəmi maliyyə aktivləri	**4,076,332**	**4,854,790**	**8,586,864**	**39,178,804**	**56,696,790**
MALİYYƏ ÖHDƏLİKLƏRİ					
Borc alınmış vəsaitlər	357,213	453,365	3,756,593	21,657,327	26,224,498
Buraxılmış borc qiymətli kağızları	85,138	-	2,000,000	14,241,300	16,326,438
İcarə öhdəlikləri	102,448	475,463	447,956	1,188,147	2,214,014
Digər maliyyə öhdəlikləri	237,130	-	-	-	237,130
Cəmi maliyyə öhdəlikləri	**781,929**	**928,828**	**6,204,549**	**37,086,774**	**45,002,080**
Likvidlik boşluğu	3,294,403	3,925,962	2,382,315	2,092,030	11,694,710
Məcmu likvidlik boşluğu	**3,294,403**	**7,220,365**	**9,602,680**	**11,694,710**	

	1 ay ərzində	1-6 ay ərzində	6-12 ay ərzində	1-5 il ərzində	31 dekabr 2024-cü il Cəmi
MALİYYƏ AKTİVLƏRİ					
Pul vəsaitləri və onların ekvivalentləri	2,020,103	-	-	-	2,020,103
Müştərilərə verilmiş kreditlər	5,618,475	5,649,462	16,040,598	10,651,556	37,960,091
Digər maliyyə aktivləri	167,090	-	-	-	167,090
Cəmi maliyyə aktivləri	**7,805,668**	**5,649,462**	**16,040,598**	**10,651,556**	**40,147,284**
MALİYYƏ ÖHDƏLİKLƏRİ					
Borc alınmış vəsaitlər	175,673	1,928,157	3,060,863	10,034,119	15,198,812
Buraxılmış borc qiymətli kağızları	208,163	2,000,000	4,988,000	6,000,000	13,196,163
İcarə öhdəlikləri	98,092	430,773	394,997	1,416,178	2,340,040
Digər maliyyə öhdəlikləri	1,558,911	-	-	-	1,558,911
Cəmi maliyyə öhdəlikləri	**2,040,839**	**4,358,930**	**8,443,861**	**17,450,296**	**32,293,926**
Likvidlik boşluğu	5,764,829	1,290,532	7,596,737	(6,798,740)	7,853,358
Məcmu likvidlik boşluğu	**5,764,829**	**7,055,361**	**14,652,098**	**7,853,358**	

Coğrafi risk

Təşkilatın bütün maliyyə aktivləri və öhdəlikləri 31 dekabr 2025-ci və 31 dekabr 2024-cü il tarixlərinə Azərbaycan Respublikasının hüdudları daxilində cəmləşmişdir.

Kredit riski

Təşkilat kredit riskinə məruz qalır ki, bu da bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman digər tərəfin maliyyə zərərləri ilə üzləşməsi riskidir. Kredit riskinə məruz qalma, Təşkilatın digər tərəflərə borc verməsi və maliyyə aktivlərinin və balansdankənar kredit öhdəliklərinin artırılmasına səbəb olan digər əməliyyatlarda iştirak etməsi nəticəsində yaranır. Təşkilatın məruz qaldığı kredit riskinin maksimal səviyyəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks olunur. Verilmiş maliyyə zəmanətləri, kreditin uzadılması üzrə öhdəlik, istifadə edilməmiş kredit xətləri və ixrac/idxal akkreditivləri öhdəlikləri üçün maksimal kredit riski öhdəliyin məbləğinə bərabərdir.

Kredit riski Təşkilatın biznes fəaliyyəti üçün yeganə böyük riskdir; buna görə də rəhbərlik kredit riskinə məruz qalmanı ehtiyatla idarə edir. Risklərin idarə edilməsi məqsədləri üçün kredit riski üzrə təxminlərin irəli sürülməsi olduqca mürəkkəbdir və bazarın şərtlərinə, ehtimal olunan pul vəsaitlərinin hərəkəti və vaxt keçidi ilə bağlı dəyişkənlik kimi modellərin istifadəsini nəzərdə tutur. Aktivlər portfeli üzrə kredit riskinin qiymətləndirilməsi, ehtimal edilən xətaların, əlaqəli zərər nisbətlərinin və kreditlərin çevrilməsi amillərinin daha çox qiymətləndirilməsini nəzərdə tutur.

Limitlər

Təşkilat, götürdüyü kredit riskinin səviyyələrini bir borcalana və ya borcalan qruplarına və coğrafi və fəaliyyət sektoru seqmentlərinə münasibətdə qəbul edilən risk məbləğinə məhdudiyyət qoyaraq qurur. İstehsal və fəaliyyət sektoru tərəfindən kredit riski səviyyəsinə görə məhdudiyyətlər rəhbərlik tərəfindən mütəmadi olaraq təsdiq edilir. Bu risklər dövri olaraq izlənilir və illik və ya daha da mütəmadi şəkildə nəzərdən keçirilir.

Təşkilat fərdi borcalanlar üçün kredit limitlərini təsdiqləyən bir sıra kredit komitələri yaratmışdır. Kredit riskinin miqyasından asılı olaraq, korporativ müştərilərlə əməliyyatlar üzrə qərarlar Əsas Kredit Komitəsi və ya Kiçik Kredit Komitəsi tərəfindən təsdiq edilir. Komitələr həftəlik olaraq toplanır. Bəzi hallarda (məsələn, iri və ya əhəmiyyətli) kreditlər İdarə Heyəti və ya Direktorlar Şurası tərəfindən təsdiq edilir.

Müvafiq müştəri xidmətləri üzrə menecerlər tərəfindən tərtib olunmuş kredit ərizələri, kredit limitinin təsdiqi üçün müvafiq kredit komitəsinə verilir. Kredit riskinə məruz qalma, qismən, girovun alınması, həmçinin korporativ və şəxsi zəmanətlər vasitəsilə idarə olunur. Kredit riskinə məruz qalmaq üçün müştərilərin biznes və maliyyə göstəricilərinə əsaslanan strukturlaşdırılmış təhlil əsasında məsul şəxslər tərəfindən müntəzəm hesabatlar hazırlanır. Ödəmə qabiliyyətini itirmiş müştərilər ilə hər hansı əhəmiyyətli təsirlər İdarə Heyəti və ya Direktorlar Şurasına təqdim edilir və nəzərdən keçirilir.

Ehtimal olunan kredit zərəri (EOKZ) üzrə ölçülmələr – anlayışlar

EOKZ, gələcək pul çatışmazlığının cari dəyərinin (kredit zərərlərinin orta çəkili dəyəri, verilmiş müddətə istifadə edilən müvafiq defolt riskləri ilə) ehtimal olunan təxminidir. EOKZ ölçüsü qərəzsizdir və bir sıra mümkün nəticələrin qiymətləndirilməsi ilə təyin edilir.

Diskont dərəcəsi – hesabat tarixində ehtimal edilən zərərin indiki dəyərə endirilməsi üçün bir alətdir. Diskont dərəcəsi maliyyə aləti üçün effektiv faiz dərəcəsini (EFD) və ya onun təxmini uyğunlaşdırılmasını əks etdirir.

Ömürlük müddət – EOKZ-nin ölçülməsi üçün maksimal müddət. Sabit ödənişli lizinqlər üçün ömürlük müddət müqavilənin qalan müddətinə bərabərdir. Kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri üçün bu, kreditin uzadılması üçün müəssisənin müqavilə öhdəliyi olan maksimal müqavilə müddətidir. Fiziki şəxslərə verilən kredit kartları üçün daxili statistikaya əsaslanır və bu 3 ilə bərabərdir.

Ömürlük EOKZ – maliyyə alətinin qalan ömür müddəti ərzində mümkün olan defolt hallarında baş verən zərərlər.

12 aylıq EOKZ – maliyyə alətləri üzrə defolt hallarının baş verməsi nəticəsində meydana çıxan EOKZ əks etdirən EOKZ-lərin bir qismi, maliyyə alətinin qalan müqavilə müddəti ilə məhdudlaşdıran hesabat tarixindən 12 ay ərzində mümkündür.

Proqnozlaşdırılan məlumat – hər bir portfel seqmenti üçün kredit riskinə və gözlənilən kredit zərərlərinə təsir edən əsas makroiqtisadi dəyişiklikləri ehtiva edən məlumat. 9 saylı MHBS maddəsinə uyğun olaraq, EOKZ-nin qiymətləndirilməsində geniş konsepsiya, proqnozlaşdırılan məlumatları nəzərdən keçirməkdir.

Kredit Konvertasiya Əmsalı (KKƏ) – balansdankənar məbləğlərin müəyyən edilmiş müddətdə balans maddəsinə çevrilmə ehtimalı olduğunu göstərir. Bu, 12 aylıq və ya ömürlük dövr üçün hesablana bilər. Həyata keçirilən təhlilə əsasında Təşkilat, 12 aylıq və ömürlük KKƏ-nin eyni olduğunu ehtimal edir.

Satın alındıqda və ya əldə edildikdə kredit üzrə dəyərsizləşmiş aktivlər (SƏKD) ilkin tanınmada kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləridir.

Aşağı kredit riskli maliyyə aktivləri – xarici reytinq agentlikləri və ya müvafiq daxili reytinq tərəfindən investisiya dərəcəsi verilmiş aktivlər, Azərbaycan Respublikası tərəfindən buraxılmış və manatla irəli sürülmüş borc alətləri, Azərbaycan Respublikasına məxsus şirkətlərə manat ilə verilmiş kreditlər. Maliyyə aktivlərinin öhdəliyin 30 gündən çox olması halında ilkin tanınma tarixindən etibarən kredit riskinə əhəmiyyətli dərəcədə artdıqları ehtimalı təkzib edilməmişdir.

Defolt və kredit üzrə dəyərsizləşməyə məruz qalmış aktiv – Defolt vəziyyətində olan kredit aşağıda göstərilən meyarlardan birinə və ya bir neçəsinə cavab verdikdə, "kredit üzrə dəyərsizləşməyə məruz qalmış" aktivin tərifi ilə tamamilə uyğunlaşdırılmış hesab olunur:

- borcalanın müqavilə şərtləri üzrə ödənişləri 90 gündən artıq gecikdirməsi;
- Kredit 6 aydan az müddət əvvəl restrukturizasiya olunmuşdur və müqavilə şərtlərinə uyğun olaraq ödənişlər 31-90 gündən çox gecikmişdir;
- Təşkilat borcalanın borcunu əhəmiyyətli zərər ilə satmağı düşünür (borcun əsas məbləğinin və hesablanmış faizlərin 5%-dən çoxu);
- borcalanın xarici reytinqi Caa2-dən aşağıdır;
- Təşkilat əsas şablon üzrə defolt reytininqinə malik qrupda borcalanı təsnif etmişdir.

Əsas Kredit Komitəsi aşağıdakı ödəmə ehtimalının olmaması meyarlarına əsasən borcalanı kredit üzrə dəyərsizləşmiş kimi tanıyır:

- borcalan ödəmə qabiliyyətinə malik deyil;
- borcalanın iflasa girmə ehtimalı yaranmağa başlamışdır;
- borcalanın öhdəliklərini müvəffəqiyyətlə yerinə yetirməkdə çətinliklərini əks etdirən digər meyarlar.

Ardıcıl altı aylıq müddət ərzində heç bir defolt meyarlarına cavab vermədikdə, alət artıq defolt vəziyyətində mövcud hesab edilmir (yəni, defolt vəziyyətinin aradan qaldırılması).

Kredit Riskində Əhəmiyyətli Artım (KRƏA) – KRƏA qiymətləndirməsi fərdi və portfel əsasında həyata keçirilir. AD və ya DMGVƏD-də hesablanmış fərdlərə verilmiş kreditlər üçün, KRƏA aşağıda göstərilən şərtlərin monitorinqi əsasında fərdi şəkildə qiymətləndirilir. KRƏA-nın müəyyənləşdirilməsi üçün istifadə edilən meyarlar Təşkilatın rəhbərliyi tərəfindən uyğunluq üçün mütəmadi olaraq izlənilir və nəzərdən keçirilir.

Təşkilat maliyyə alətini aşağıda göstərilən kəmiyyət, keyfiyyət və ya dəstəkləyici meyarlardan birinin və ya bir neçəsinin yerinə yetirildiyi zaman KRƏA-ya uğraması kimi dəyərləndirir.

Hüquqi şəxslərə verilmiş kreditlər və hüquqi şəxslər tərəfindən buraxılmış istiqrazlar, banklararası əməliyyatlar və banklar tərəfindən buraxılan istiqrazlar üçün:

- 31-90 gündən artıq gecikdirilmiş;
- 6-30 gündən artıq gecikmiş və restrukturizasiya olunmuş;
- Monitorinqlər borcalanın maliyyə çətinlikləri olduğunu göstərir.

Fiziki şəxslərə verilmiş kreditlər üçün:

- 31-90 gün gecikdirilmiş;
- 6-30 gündən artıq gecikmiş və restrukturizasiya olunmuş;
- Yenidən maliyyələşdirilən kreditlər – borcalanın bütün kreditlərinin bir kreditdə təkrar maliyyələşdirildiyi xüsusi kredit növü;
- Problemli kreditlər departamenti tərəfindən kreditin nəzarət siyahısına daxil edilməsi.

KRƏA meyarlarına artıq cavab vermədiyi və bunun ən az 6 ay davam etməsinə dair sübutlar olduqda, alət 1-ci Mərhələyə qaytarılır. Keyfiyyət göstəricisinə əsasən, risk 2-ci Mərhələyə köçürülmüşdürsə, Təşkilat göstəricinin mövcud olması və ya dəyişməsi dinamikasını izləyir.

EOKZ-nin ölçülməsi – qiymətləndirmə üsullarının təsviri

SƏKD olmayan maliyyə aktivləri üçün EOKZ-lər, ümumən, borcalanın kredit riskinin ilkin tanınmasından sonra əhəmiyyətli dərəcədə artmış olub-olmamasından asılı olaraq, iki müxtəlif dövr üzrə defolt riskinə əsasən qiymətləndirilir. Bu yanaşma EOKZ ölçüsü üzrə üç mərhələli modeldə ümumiləşdirilə bilər:

- 1-ci Mərhələ: ilkin tanınma zamanı kredit zərərinə məruz qalmamış maliyyə aləti və onun kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdır; zərərin ödənilməsi 12 aylıq EOKZ-lərə əsaslanır.
- 2-ci Mərhələ: ilkin tanınmadan sonra KRƏA-nın müəyyən edildiyi təqdirdə, maliyyə aləti 2-ci Mərhələyə köçürülmüş, lakin hələ də kredit zərərinə məruz qalmamışdır; zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.
- 3-cü Mərhələ: maliyyə aləti kredit zərərinə məruz qalarsa, maliyyə aləti daha sonra 3-cü Mərhələyə köçürülür və zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.

SƏKD maliyyə aktivləri üçün EOKZ həmişə ömürlük ölçülür (3-cü Mərhələ), buna görə hesabat tarixində Təşkilat yalnız ömürlük ehtimal olunan kredit zərərlərindəki məcmu dəyişiklikləri tanıyır.

Təşkilat EOKZ ölçülməsi üçün üç ayrı yanaşma həyata keçirə bilər:

- Fərdi əsasda qiymətləndirmə;
- Portfel əsasında qiymətləndirmə: fərdi əsasda, lakin eyni kredit riski parametrləri ilə təxmin edilən daxili reytinq. (məsələn DE, DZYZ) eyni kredit riski reytinqi və kredit portfelinin həmcins seqmentləri üzrə EOKZ hesablamaları zamanı tətbiq edilir;
- Xarici reytinqə əsaslanan qiymətləndirmə.

Təşkilat hüquqi şəxslərə verilmiş kreditlərin aşağıdakı növləri üzrə fərdi əsasda qiymətləndirmə aparır: vahid kredit riski xüsusiyyətlərinə malik kreditlər, fərdi əhəmiyyətli kreditlər və dəyərsizləşmiş kreditlər.

Təşkilat aşağıdakı növ aktivlər üzrə portfel əsasında qiymətləndirməni həyata keçirir: hüquqi şəxslərə verilmiş kreditlər və kreditlə bağlı öhdəliklər (standart kredit, ixtisaslaşdırılmış kreditlər, lizinq kreditləri və s.), qruplararası kreditlər, fərdi kreditlər və KOB-lara verilmiş kreditlər). Bu yanaşma portfelin borcalanın xüsusi məlumatlarına əsaslanan eyni xüsusiyyətlərə malik seqmentlərə birləşməsini əhatə edir.

Təşkilat aşağıdakı kredit növləri üçün xarici reytinqlər üzrə qiymətləndirmələr aparır: banklararası kreditlər, banklar, hüquqi şəxslər və suverenlər tərəfindən verilmiş borc qiymətli kağızları, suverenlərə verilmiş kreditlər.

Fərdi əsasda qiymətləndirmə prinsipləri – fərdi əsasda EOKZ qiymətləndirmələri hər bir nəticənin ehtimalına qarşı müxtəlif mümkün nəticələrə görə kredit zərərləri üzrə təxminlərini ölçülməsi ilə həyata keçirilir. Təşkilat hər bir kredit üçün ən azı iki mümkün nəticəni müəyyən edir ki, bunlardan biri belə bir ssenarinin ehtimalına baxmayaraq kredit zərərinə səbəb olur. Fərdi qiymətləndirmə əsasən Problemli kreditlərlə iş departamentinin mütəxəssislərinin rəyi əsasında aparılır. Mütəxəssislərin hesabatları qalıqlar və faktiki zərərlər arasındakı fərqi azaltmaq üçün müntəzəm olaraq yoxlanılır.

Portfel əsasında qiymətləndirmə prinsipləri – riskə məruzqalma mərhələsini qiymətləndirmək və kollektiv əsasda zərər ehtiyatını ölçmək üçün Təşkilat öz risklərini Təşkilat daxilində riskə məruz qalmalar kimi ortaq kredit riski xüsusiyyətləri əsasında eyni xüsusiyyətlərə malik seqmentlərə birləşdirir. Xüsusiyyətlərə daxildir: müştərinin növü (məsələn, gəlir gətirən əmlak və ya lizinq şirkətləri), məhsul növü (kredit kartları və ya pul kreditləri kimi), kredit riski reytinqi və ilkin tanınma tarixi.

Fərqli seqmentlər DE və DZYZ kimi kredit risk parametrlərindəki fərqləri əks etdirir. Qrupların uyğunluğu Risklərin idarə edilməsi departamenti tərəfindən dövri olaraq izlənilir və nəzərdən keçirilir.

Ümumiyyətlə, EOKZ aşağıdakı kredit riski parametrlərinin birləşməsidir: DVRMQ, DE və DZYZ (parametrlərin tərifləri yuxarıda göstərilmişdir). EOKZ hesablanması üzrə ümumi yanaşma aşağıda göstərilmişdir. Bu yanaşma portfel əsasında qiymətləndirilmiş məhsullar üzrə və Təşkilatın həmin məhsul üzrə borcalanının xüsusi məlumatı əsasında kredit riski reytinqi qiymətləndirməsi olan məhsul üzrə tətbiq oluna bilər. EOKZ növbəti 12 ay və ya ömürlük alətlər üzrə kredit riski paramterlərinin (DVRMQ, DE və DZYZ) proqnozlaşdırılması ilə müəyyən edilir. Bu üç komponent birlikdə artırılır və qalıq ehtimalı (yəni əvvəlki dövrdə ödənilmiş və ya defolt vəziyyətində riskə məruz qalmışdır) üzrə düzəliş edilir. Kredit riski parametrlərinin hesablanmasının qısa olaraq əsasları aşağıdakılardır.

DVRMQ-lər gözlənilən ödəniş profilinə əsasən müəyyən edilir ki, bu da məhsul növünə görə dəyişir:

- məhsulların və birmərtəbəli ödəmə kreditlərinin amortizasiyası üçün DVRMQ, borcalanın 12 aylıq və ya ömürlük əsasda borclu olduğu müqavilə ödəmələrinə əsaslanır.
- Məhsulların dövriyyəsi üçün DVRMQ, defolt anına qalmış limitin gözlənən istifadəsini nəzərə alaraq, cari istifadə edilmiş qalığın alınması və kredit konversiyası əmsalının əlavə edilməsi yolu ilə proqnozlaşdırılır.

EOKZ-lərin hesablanması üçün DE-nin iki növü istifadə edilir: 12 aylıq və ömürlük DE:

- 12 aylıq DE-lər – Defoltun növbəti 12 ay ərzində (və ya maliyyə alətinin qalan ömrü 12 aydan az olduqda) baş verməsi ehtimalı. Bu amil 12 aylıq EOKZ-ləri hesablamaq üçün istifadə edilir. 12 aylıq DE-nin qiymətləndirilməsi ən son mövcud tarixi məlumatlara əsaslanır və lazım olduğu təqdirdə gələcək perspektiv məlumatlar üçün uyğunlaşdırılır.
- Ömürlük DE-lər – Defoltun maliyyə alətinin qalan ömrü üzrə təxmin edilən baş verməsi ehtimalı. Bu amil ömürlük EOKZ-ləri 2-ci Mərhələ riskləri üzrə hesablamaq üçün istifadə edilir. Ömürlük DE-nin qiymətləndirilməsi ən son mövcud tarixi məlumatlara əsaslanır və lazım olduğu təqdirdə gələcək perspektiv məlumatlar üçün uyğunlaşdırılır.

Ömürlük DE-ni hesablamaq üçün, Təşkilat 12 aylıq DE-lərin miqrasiya matritslərinə əsasən ekstrapolyasiya edilməsi və tarixi defolt məlumatına əsaslanan ömürlük DE-nin əyrilik əmsalı kimi seqment və məhsul növündən asılı olaraq müxtəlif statistik yanaşmalardan istifadə edir. Ömürlük DE hesablamaları üçün, Təşkilat tarixi defolt məlumatları və defolt məlumatların mövcud olmadığı uzun müddətlər üçün isə trendlərin ekstrapolyasiyasından istifadə edir.

DZYZ, defolt riski ilə bağlı olaraq Təşkilatın yarana bilən zərərlə bağlı gözləntisini əks etdirir. DZYZ, məhsul, mərhələ, girovun və ya digər bu kimi kredit təminatının mövcudluğuna görə fərqli nəticələr göstərir. 12 aylıq və ömürlük DZYZ-lər, defolt hadisəsindən sonra gözlənilən əldə ediləcək vəsaitlərə təsir edən amillər əsasında müəyyən edilir. DZYZ-nin ölçülməsinə yanaşma üç mümkün qrupa bölünə bilər:

- girovun özəl xüsusiyyətlərinə əsasən DZYZ-nin ölçülməsi;
- bərpa statistikasına əsaslanaraq portfel əsasında DZYZ-nin hesablanması;
- fərqli amil və ssenarilərdən asılı olaraq fərdi qaydada müəyyən edilmiş DZYZ.

Daşınmaz əmlakın girov qoyulduğu kreditlər üçün Təşkilat DZYZ-ni girovun xüsusiyyətləri əsasında, məsələn, proqnozlaşdırılan girov dəyərləri, satış üzrə tarixi güzəştlər və digər amillər ilə hesablayır. Korporativ, pərakəndə, banklararası kredit portfelinin və korporativ istiqrazların xüsusi seqmentləri üçün DZYZ son mövcud statistik məlumatlara əsasən kollektiv əsasda hesablanır.

27. SƏHM ÜZRƏ MƏNFƏƏT

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Təşkilatın səhmdarı ilə əlaqələndirilən il üzrə xalis mənfəət	5,546,436	4,820,580
Səhm üzrə əsas və azaldılmış mənfəət məqsədilə adi səhmlərin orta sayı	9,198	8,000
Səhm üzrə mənfəət - əsas və azaldılmış	**603**	**603**

28. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövrdə, regionda İranın iştirakı ilə silahlı münaqişə kəskinləşmişdir. Rəhbərlik regional sabitlik, ticarət axınları və qlobal enerji bazarlarına təsir edə biləcək vəziyyəti yaxından izləyir. Hesabat tarixində maliyyə hesabatlarında düzəliş edilməsini tələb edən hər hansı hal mövcud olmamışdır.